**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA DİNİ PROSESLƏR

İxtisas: **5503.02 – Vətən tarixi**

Elm sahəsi: **Tarix**

İddiaçı: **Əli Rizvan oğlu Fərhadov**

Elmlər doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Milli Azərbaycan Tarixi Muzeyinin "Azərbaycan tarixinin elmi tədqiqi və təqdimi" şöbəsində yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:** tarix elmləri doktoru, dosent
**Nərgiz Ağasəlim qızı Əliyeva**

**Rəsmi opponentlər:** AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor
**Hacıfəxrəddin Yəhya oğlu Səfərli**

tarix elmləri doktoru, dosent
**Eynulla Yadulla oğlu Mədətli**

tarix elmləri doktoru, dosent
**Güntəkin Cəmil qızı Nəcəfli**

tarix elmləri doktoru, dosent
**İbrahim Feyzulla oğlu Kazımbəyli**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor
_____________________ **Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi: tarix elmləri doktoru, dosent
_____________________ **İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: tarix elmləri doktoru, professor
_____________________ **Mehman Sirac oğlu Süleymanov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir Azərbaycan tarixşünaslığında tədqiqi əhəmiyyətli sayılan ən aktual problemlərdən biri dini keçmişimizin araşdırılması məsələsi, dini proseslər, islam həmrəyliyi, multikulturalizm baxımından bu mövzuların tədqiqidir. Dövlət müstəqilliyinin bərpası, Azərbaycan tarixinin bütün dövrlərinə dair araşdırmaların, həmçinin din tariximizlə bağlı məsələlərin tədqiqi üçün geniş imkanlar açdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı ili "Multikulturalizm ili", 2017-ci ili isə "İslam həmrəyliyi ili" elan etməsi tədqiqatçılar üçün bir stimul oldu. Dünyada güclənən dini radikallıq, mövhumatçılıq, şiddətə meyilli bəzi dini cərəyanların fəaliyyətinin artması, bu cür mənfi hallarla mübarizə və s. proseslər dissertasiyanın aktuallığını daha da artırır.

Qeyd etmək lazımdır ki, Azərbaycan tarixin müxtəlif mərhələlərində fərqli imperiyaların tərkibində olmuş və sosial-siyasi, dini həyatında mühüm hadisələr baş vermişdir. Azərbaycan Xalq Cümhuriyyəti (AXC) dövrünü çıxmaq şərtilə təxminən iki yüz illik Rusiya əsarəti azərbaycanlıların milli və dini hüquqlarının pozulduğu bir dövr olmuşdur. XIX əsrin başlarından etibarən vahid Azərbaycan xalqı siyasi cəhətdən ikiyə bölünmüş, bir-birindən xeyli fərqlənən Rusiya və Qacar dövlətlərinin tərkibində müxtəlif ictimai-siyasi və mədəni inkişaf yolu keçmişdir. Çar Rusiyası işğal etdiyi Şimali Azərbaycan əhalisini milli-mənəvi baxımdan assimilyasiya etmək, islami dəyərlərini zəiflətmək siyasətini icra etməyə başlamış, bənzər proses Qacarlar dövründə də yerinə yetirilmiş, dini dəyərlər şah rejimini qorumaq üçün siyasi məqsədlərə qurban verilmişdir.

Təbii ki, bu dövrdə Azərbaycanın bir çox mütərəqqi din xadimləri və digər ziyalıları həm çar Rusiyası, həm də Qacar dövlət xadimləri tərəfindən məhv edilməyə məhkum edilmiş və ya fikirləri təhrif edilmişdir. Müstəqilliyə qədərki dövrdə rəsmi tarixin ideoloji olması və bundan qaynaqlanan subyektivliyə görə Azərbaycan tarixinin bir çox məsələləri, o cümlədən dövrün dini prosesləri və bu

proseslərdə mühüm rol oynamış mütərəqqi din xadimlərinin, digər ziyalıların fəaliyyəti yetərli qədər obyektiv araşdırılmamış, yanlışlıqlara yol verilmişdir. Həmçinin o dövrün müsəlman müəlliflərinin əsərlərinin gizlədilməsi, məhv edilməsi, qəsdən araşdırılmaması, təzyiq və qorxu mühiti mövzunun tam tədqiq edilməməsinin əsas səbəblərindən olmuşdur.

1991-ci ilin sonundan etibarən Şimali Azərbaycanın müstəqil bir dövlətə çevrilməsi təxminən iki yüz illik işğaldan sonra xalqın öz həqiqi tarixini öyrənə bilməsi üçün yeni imkanlar yaratdı. Bunun nəticəsində dəyərli ziyalılarımızla bərabər din xadimlərimizin əsərlərinin qərəzsiz, obyektiv şəkildə tədqiqinə şans yarandı.

Dissertasiyada bu məsələyə xüsusi yer ayrılmış, islam da daxil olmaqla, müxtəlif dini cərəyanların, missionerlik və onlara qarşı mübarizə aparan din xadimlərinin, digər ziyalıların əsərləri araşdırılmış, islam adı altında xalqa zülm edənlərə qarşı həqiqi dini dəyərləri müdafiə edənlərin xalqı xurafat və mövhumatçılıqdan çəkindirməsi göstərilmişdir.

Dissertasiya işində dövrün milli mətbuatının, partiyaların, müxtəlif dini icmaların dini prosesdəki rolları haqqında geniş məlumat verilmiş, həmçinin baş vermiş üsyan və inqilabların dini proseslərdəki rolu araşdırılmışdır.

Mövzumuzla əlaqədar R.Hüseynlinin tədqiqatlarında[1] xanlıqlar dövründə dini vəziyyət, çarizmin müsəlman din xadimlərinə mənfi münasibəti və bu din xadimlərinin çar hakimiyyətinə qarşı mübarizəsi geniş işıqlandırılmışdır. Ə.S.Sumbatzadənin,[2] Ə.Tahirzadənin,[3] T.Həsənzadənin,[4] E.Mədətlinin[5] əsərlərində Cənubi Azər-

---

[1] Hüseynli, R. Azərbaycan ruhaniliyi (xanlıqlar çağından sovet işğalınadək olan dövrdə) / R.Hüseynli. – Bakı: Kür nəşr., – 2002. – 266 s.

[2] Cənubi Azərbaycan tarixinin oçerki (1828-1917) / məsul red: Ə.S.Sumbatzadə. – Bakı: Elm, – 1985. – 316 s.

[3] Tahirzadə, Ə. Ağaməhəmməd şah Qacar (Tərcümeyi-hal oçerki) / Ə.Tahirzadə. – Bakı: Kür nəşriyyatı, – 2002. – 44 s.

[4] Həsənzadə, T. XVIII-XIX əsrlərdə İranda yaşamış azərbaycanlı ictimai-siyasi xadimlər: Mehdi Bamdadın “Tarixi-ricali-İran” əsəri əsasında / T.Həsənzadə. – Bakı: Nurlan, – 2007. – 320 s.; Həsənzadə, T. Qacarlar dövrünün titulları // – Bakı:

baycandakı ictimai-siyasi, dini durum, ziyalıların dinə baxışı müəyyən qədər təqdim edilib. K.Şükürovun "Türkmənçay – 1828: tarixi xronika (qısa ixtisarla)" əsərində[6] Qacar dövrü müctəhidlərinin, erməni din xadimlərinin Rusiya işğalı dövründə oynadıqları rol təqdim edilmişdir.

H.Səfərinin yaradıcılığında[7] xaricilərin Cənubi Azərbaycandakı missionerlik fəaliyyəti, erməni-aysor silahlı dəstələrinin müsəlmanlara qarşı etdiyi soyqırımlar tədqiq və təqdim edilmişdir. Ş.Tağıyevanın, Ə.Rəhimlinin, S.Bayramzadənin əsərlərində Cənubi Azərbaycanda məşrutə və Xiyabani hərəkatları tədqiq edilmişdir.[8]

XIX – XX əsrin əvvəllərində İranda ruhanilər və dini proseslər haqqında E.Abrahamianın[9] əsərlərindən istifadə edilib. S.H.Nəsrin,[10]

---

Tarix və onun problemləri, – 2009. № 1-2, – s. 385-392; Həsənzadə, T. Marağalı Məhəmmədhəsən xan Etimadüssəltənənin əsərlərində Azərbaycan tarixi məsələləri / T.Həsənzadə. – Bakı: Tural, – 2001. – 224 s.; Həsənzadə, T.D. Heydər Əmoğlu və onun azərbaycanlı məsləkdaşları // – Bakı: Bakı Universitetinin Xəbərləri, – 2008. №3, – s.158-163.

[5] Mədətli, E. Azərbaycan tarixi məsələləri İran tarixşünaslığında (XX əsrin əvvəlləri) / E.Mədətli. – Bakı: "Turxan" NPB, – 2017. – 288 s.; Mədətli, E. İranda Azərbaycan tarixi məsələləri / E.Mədətli. – Bakı: Turxan NPB, 2020. – 508 s.

[6] Şükürov, K. Türkmənçay – 1828: Tarixi xronika (ixtisarla) / K.Şükürov. – Bakı: [n.y.], – 2006. – 188 s.

[7] Səfəri, H. Cənubi Azərbaycan: 1918-ci il soyqırımı / H.Səfəri. – Bakı: Araz, – 2016. – 204 s.

[8] Rehimli (Bije), E. Şeyh Mehemmed Hiyabani (1879-1920) / Azerbaycan Önderleri / ed. N.Nesibli. – Ankara: Berikan yay., – 2017. – s.195-207; Rəhimli (Bije), Ə. Güney və Quzey Azərbaycan: ensiklopedik təqvim / Ə.Rəhimli (Bije), S.Bayramzadə. – Bakı: Apostroff, – 2014. – 340 s.; Tağıyeva, Ş. Güney Azərbaycan / Ş.Tağıyeva, Ə.Rəhimli (Bije), S.Bayramzadə. – Bakı: Orxan, – 2000. – 216 s.

[9] Abrahamian, E. A history of modern Iran / E.A. Abrahamian. – Cambridge: Cambridge University Press, – 2008. – 228 p.; Abrahamian, E. Iran between two revolutions / E.Abrahamian. – Princeton: Princeton University Press, – 1983. – 562 p.; Abrahamian, E. The Causes of the Constitutional Revolution in Iran // – Cambridge: International Journal of Middle East Studies, – 1979, Vol. 10, № 3, – p. 381-414.

[10] Nasr, S.H. History of Islamic Philosophy / S.H.Nasr, O.Leaman. – London: Routledge, – 1996. – 2187 p.; Nasr, S.H. The school of Azerbaijan and its

H.Korbinin[11] əsərlərində təbrizli ilahiyyatçı filosofların Qacarlarla əlaqələri haqqında məlumatlar var. S.Sərdariniyanın əsərlərində Cənubi Azərbaycan ziyalıları, ruhanilər, məşrutə dövrü, tənbəkü üsyanı, Qacar rejiminə qarşı mübarizə, aysorlar və ermənilər tərəfindən müsəlmanlara qarşı törədilmiş qırğınlar haqqında dəyərli məlumatlar var.[12] Ə.Pakrəvanın[13] tədqiqatları XIX-XX əsrin əvvəllərində Qacarlar dövrünü tədqiq etmək baxımından əhəmiyyətlidir. T.Atabəyinin yaradıcılığında[14] məşrutə inqilabı və M.Xiyabani dövrü əsasən siyasi baxımdan tədqiq edilmişdir. A.Mövlayinin yaradıcılığında İran və İraqda, dini mərkəzlərdə təhsil almış azərbaycanlı ruhanilər haqqında məlumat verilib.[15]

Tədqiq edilən dövrdə Çar Rusiyasının müsəlmanlara baxışını tədqiq etmək baxımından D.Arapovun[16] əsərləri və üç cildlik "Qafqazda "erməni məsələsi". Rusiya arxiv sənədləri və nəşrləri üzrə" kitabları qiymətlidir. D.Arapovun araşdırmalarında çar hökumətinin müsəlman ruhaniliyi haqqında verdiyi əmrlər, qanunlar öz

---

pertinence in the Islamic philosophical tradition // East and West: Common Spiritual Values, Scientific-Cultural Links / ed. A.Asadova. – Istanbul: Insan, – 2010. – p.423-435.

[11] Corbin, H. İslam felsefesi tarihi / H.Corbin, terc. ed. A.Arslan. – İstanbul: İletişim, – 2013. – c. 2. – 200 s.

[12] Sərdariniya, S. Arazın hər iki tayında müsəlmanların soyqırımı / S.Sərdariniya, tərc. ed. A.Maralanlı. – Bakı: Elm, – 2006. – 120 s.; Sərdariniya, S. İrəvan müsəlman sakinli vilayət olmuşdur / S.Sərdariniya, tərc. ed. İ.Quliyev. – Bakı: – Zərdabi nəşriyyatı, – 2014. – 224 s.

[13] Pakrəvan, Ə. Abbas Mirzə və Azərbaycan / Ə.Pakrəvan, tərc. ed. G.Cavanşir. – Bakı: Qanun, – 2007. – 208 s.

[14] Atabəyi, T. Azərbaycan: etnik mənsubiyyəti və İranda qüdrət uğrunda mübarizəsi / T.Atabəyi, tərc. ed. N.Mədətli. – Bakı: Təhsil, 2002. – 248 s.; Atabaki, T. Men of Order Authoritarian Modernization under Ataturk and Reza Shah / T.Atabaki, E.J.Zürcher. – London: Taurıs, – 2004. – 286 p.

[15] Mövlayi, A. Qafqazda elmdünyasının ulduzları / A.Mövlayi. – Bakı: [n.y.], – 2013. – 223 s.

[16] Арапов, Д.Ю. Императорская Россия и мусулманский мир (конец XVIII – начало XX вв.) / Д.Ю.Арапов. – Москва: Наталис, – 2006. – 480 с.; Арапов, Д.Ю. Ислам в Российской империи. Законодательные акты, описания, статистика / Д.Ю.Арапов. – Москва: Академкнига, – 2001. – 261 с.

əksini tapmışdır. "Qafqazda "erməni məsələsi"[17] kitabında çar hökumətinin müsəlmanlara təzyiq üçün ermənilərdən necə istifadə etdiyini əks etdirən qiymətli sənədlər toplanmışdır. L.Klimoviçin,[18] A.Qaniçin,[19] T.Svyatoxovskinin[20] əsərləri çar Rusiyasının və xristian missionerlərinin anti-islam fəaliyyətini və dövrün müsəlman din xadimlərinin mövqeyini göstərən qiymətli əsərlərdir.

Çox təəssüf ki, sovet dövründə mövzu ilə əlaqəli yazılan kitablarda islama və din xadimlərinə birtərəfli münasibət sərgilənmiş, məsələlərə obyektiv deyil, subyektiv yanaşılmışdır. Sovet dövründə Azərbaycanda dini proseslərin, dini xurafat və mövhumata qarşı mübarizənin tədqiqi baxımından H.Hüseynovun,[21] S.Hüseynovun,[22]

---

[17] Qafqazda "erməni məsələsi". Rusiya arxiv sənədləri və nəşrləri üzrə: [3 cilddə] / tərt. ed. T.K.Heydərov, T.R.Bağıyev, K.K.Şükürov. – Bakı: Elm, – 2010. – c.1. – 713 s.; Qafqazda "erməni məsələsi". Rusiya arxiv sənədləri və nəşrləri üzrə: [3 cilddə] / tərt. ed. T.K.Heydərov, T.R.Bağıyev, K.K.Şükürov. – Bakı: Elm, – 2010. – c.2. – 616 s.; Qafqazda "erməni məsələsi". Rusiya arxiv sənədləri və nəşrləri üzrə: [3 cilddə] / tərt. ed. T.K.Heydərov, T.R.Bağıyev, K.K.Şükürov. – Bakı: Elm, – 2010. – c.3. – 348 s.

[18] Климович, Л. Ислам в царской России / Л.Климович. – Москва: Государственное антирелигиозное издательство, – 1936. – 409 с.; Климович, Л.И. Книга о Коране, его происхождении и мифологии / Л.И.Климович. – Москва: Издательство политической литературы, – 1986. – 145 с.

[19] Ганич, А.А. «Поучение» Закавказского муфтия и председателя Закавказского мусульманского духовного правления суннитского учения (1892 г.) / Актуальные проблемы истории и этнографии народов Кавказа. Сборник статей к 60-летию В.ХКажарова. – Нальчик: Издательство Института гуманитарных исследований Правительства КБР и КБНЦ РАН, – 2009. – с.328-346; Духовные правления мусульман Закавказья в Российской империи (XIX – начало XX в.) / А.А.Ганич. – Москва: Издательский дом Марджани, – 2013. – 496 с.

[20] Swietochowski, T. 1920 Öncesinde Rus Azerbaycan'ında Milli Kimliğin Yükselişi ve Edebi Dil Politikası. Terc: S.Gömeç. // – Ankara: Tarih Araştırmaları Dergisi, -2003. – c.22/34, s.175-182; Swietochowski, T. Müslüman cemaatten ulusal kimliğe Rus Azerbaycanı, 1905-1920 / T. Swietochowski, terc. ed. N.Mert. – İstanbul: Bağlam, – 1988. – 295 s.

[21] Hüseynov, H. XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən / H.Hüseynov. – Bakı: Şərq-Qərb, – 2007. – 400 s.

Q.Mustafayevin,[23] Ə.Həsənovun,[24] Z.B.Göyüşovun[25] əsərləri əhəmiyyətlidir.

Müstəqillik illərindən etibarən Azərbaycanda islam mədəniyyəti, islam tarixi mövzusunun obyektiv tədqiqi vüsət almağa başlamış, mövzu ilə əlaqədar A.Əhədovun,[26] Z.Məmmədovun,[27] Y.Abbasovun,[28] F.Vəlioğlunun,[29] Ə.Çingizoğlunun,[30] V.Quliyevanın,[31] H.Orucovun,[32] H.Məmmədlinin[33] və digərlərinin qiymətli

---

[22] Hüseynov, S. XIX əsrin qabaqcıl Azərbaycan yazıçıları dini mövhumat və fanatizm əleyhinə mübarizədə / – Bakı: ASSR EA Nəşriyyatı, – 1955. – 162 s.; Hüseynov, S. Seyid Əzim Şirvani / S.Hüseynov. – Bakı: Yazıçı, – 1987. – 124 s.; Hüseynov, S. Seyid Əzim Şirvaninin yaradıcılıq yolundan / S.Hüseynov. – Bakı: Elm, – 1977. – 217 s.

[23] Mustafayev, Q. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi / Q.Mustafayev. – Bakı: Maarif, – 1973. – 296 s.

[24] Həsənov, Ə. Azərbaycan maarifçiləri tərəfindən islamın tənqidi (XIX əsrin II yarısı XX əsrin əvvəlləri) / Ə.Həsənov. – Bakı: Yazıçı, – 1983. – 224 s.

[25] Göyüşov, Z.B. Azərbaycan maarifçilərinin etik görüşləri (XIX əsrin II yarısı) / Z.B.Göyüşov. – Bakı: ASSR EA Nəşriyyatı, – 1960. – 212 s.; Göyüşov, Z.B. Azərbaycan maarifçilərinin əsərlərində əxlaq məsələləri (XIX əsrin sonu – XX əsrin əvvəlləri) / Z.B.Göyüşov. – Bakı: Azərnəşr, – 1989. – 206 s.

[26] Əhədov, A. Azərbaycanda din və dini təsisatlar / A.Əhədov. – Bakı: Azərnəşr, – 1991. – 200 s.; Əhədov, A. Azərbaycanda islamın modernləşdirilməsi / A.Əhədov. – Bakı: Azərnəşr, – 1995. – 156 s.

[27] Məmmədov, Z. Azərbaycan fəlsəfəsi tarixi / Z.Məmmədov. – Bakı: Şərq-Qərb, – 2006. – 328 s.

[28] Abbasov, Y. İslam alimləri. Dünyada tanınmış Azərbaycanlı müctəhidlər, Ayətullahlar: XVI-XX əsrlər / Y.Abbasov. – Bakı: Nurlar, – 2007. – 440 s.

[29] Vəlioğlu, F. Azərbaycanın görkəmli islam alimləri / F.Vəlioğlu. – Bakı: Əhlibeyt yolu, – 2009. – 211 s.

[30]Çingizoğlu, Ə. Qacarlar və Qacar kəndi / Ə.Çingizoğlu. – Bakı: Şuşa nəşr., – 2008. – 368 s.; Çingizoğlu, Ə. Məşrutə hərəkatında ruhanilərin rolu / Ə.Çingizoğlu. – Bakı: Mütərcim, – 2018. – 160 s.

[31] Кулиева, В.А. Роль и позиция мусульманского духовенства в социально-культурной жизни Нахичевани, Эриванской губернии и Зангезура в XIX – начале XX в. / В.А. Кулиева – Баку: Элм, 1999. – 64 с.; Кулиева, В.А. Роль и позиция мусульманского духовенства в социально – политической и культурной жизни Азербайджана в XIX – начале XX вв. в ракурсе армяно

əsərləri ortaya çıxmışdır. Bu əsərlərdə tədqiq edilən dövrün ruhaniləri və dini vəziyyət müəyyən qədər işıqlandırılmışdır. S.Qasımovanın tədqiqatlarında M.Kazımbəyin yaradıcılığı əsasında dini mövzular tədqiq edilib və o, *"Şərq və Qərb arasında körpü"*[34] adlandırılıb. A.Əhədovun əsərlərində[35] islam modernizmi, ictimai məsələlərə müasir islami baxış məsələləri tədqiq edilmişdir. M.Nemətin tədqiqatlarında[36] Azərbaycan ruhaniləri və sufilər haqqında dəyərli məlumatlar var. V.Quliyevanın əsərlərində[37] müsəlman ruhanilərinin iqtisadi vəziyyəti, sosial-siyasi, mədəni həyatda rolu, vəqf sistemi tədqiq edilib. İ.Bağırovanın yaradıcılığında[38] dövrün siyasi mənzərəsi ilə birlikdə Ə.Ağaoğlu başda olmaqla şəriətə

---

азербайджанских политических отношений / В.А.Кулиева. – Баку: «Нурлан», – 2003. – 371 с.

[32] Orucov, H. Azərbaycanda din: ən qədim dövrdən bu günədək / H.Orucov. – Bakı: "İdrak İB", – 2012. – 388 s.

[33] Məmmədli, H. Qafqazda islam və şeyxülislamlar / H.Məmmədli. – Bakı: MBM, – 2005. – 179 s.

[34] Qasımova, S. Mirzə Kazımbəy: Şərq və Qərb arasında körpü / S.Qasımova. - Bakı: "Elm və təhsil", – 2014. – 160 s.

[35] Əhədov, A. Azərbaycanda din və dini təsisatlar / A.Əhədov. – Bakı: Azərnəşr, – 1991. – 200 s.; Əhədov, A. Azərbaycanda islamın modernləşdirilməsi / A.Əhədov. – Bakı: Azərnəşr, – 1995. – 156 s.

[36] Неймат, М.С. Корпус эпиграфических памятников Азербайджана. Арабо-персо-тюркоязычные надписи Ширвана, Гянджи, Агдама, Шуши, Физули, Зангелана, Джабраила, Лачына, Кельбаджара и др. (XI – начало XX вв.) / М.С.Неймат. – Баку: «Элм и тахсил», т.V. – 2011. – 240 с.

[37] Кулиева, В.А. Роль и позиция мусульманского духовенства в социально-культурной жизни Нахичевани, Эриванской губернии и Зангезура в XIX – начале XX в. / В.А. Кулиева – Баку: Элм, 1999. – 64 с.; Кулиева, В.А. Роль и позиция мусульманского духовенства в социально – политической и культурной жизни Азербайджана в XIX – начале XX вв. в ракурсе армяно азербайджанских политических отношений / В.А.Кулиева. – Баку: «Нурлан», – 2003. – 371 с.

[38] Багирова, И. С. Политические партии и организации Азербайджана в начале XX века (1900-1917) / И.С.Багирова. – Баку: Елм, – 1997. – 336 с.; История общественно-культурного реформаторства на Кавказе и в Центральной Азии (XIX – начало XX века) / ответственные ред. Д.Алимова, И.Багирова. – Самарканд: МИЦАИ, – 2012. – 335 с.

əsaslanan "Difai" partiyasının cəmiyyətdəki rolu göstərilmişdir. Həmçinin Rusiyanın assimilyasiya siyasətinə qarşı müsəlmanların milli-dini islahatçılıq hərəkatı geniş əks olunmuşdur.[39] Ş.Rəhman-zadənin tədqiqatlarında işğala baxmayaraq rus ictimai, elmi, mədəni mühitinin Azərbaycan üçün mütərəqqi Qərb dəyərlərinə açılan bir pəncərə olduğu vurğulanmışdır.[40] K.İsmayılovun tədqiqatlarında AXC dövründə azərbaycançılıq ideologiyası tədqiq edilmişdir.[41] M.Süleymanovun tədqiqatlarında Rusiya işğalına qarşı azərbaycanlıların, o cümlədən, din xadimlərinin mübarizəsi haqqında geniş məlumatlar var.[42] D.Seyidzadənin yaradıcılığında[43] dövrün ictimai-siyasi səhnəsi dəqiq təsvir edilmiş, Dövlət Dumasının azərbaycanlı deputatlarının fəaliyyəti, onların çarizmin müsəlmanları assimilyasiya siyasətinə qarşı mübarizəsi geniş işıqlandırılmışdır. S.Süleymanovanın yaradıcılığında[44] dövrün islamçılıq cərəyanı və nümayəndələri haqqında geniş məlumat vardır. Q.Cavadlının tədqiqatlarında[45] çarizm dövründə milli mətbuatın dinə münasibəti

---

[39] Багирова, И. С. Политические партии и организации Азербайджана в начале XX века (1900-1917) / И.С.Багирова. – Баку: Елм, – 1997. – 336 с.; История общественно-культурного реформаторства на Кавказе и в Центральной Азии (XIX – начало XX века) / ответственные ред. Д.Алимова, И.Багирова. – Самарканд: МИЦАИ, – 2012. – 335 с.

[40] Рахманзаде, Ш. Размышляя об истоках Азербайджанского Модерна: социокультурные трансформации и просветительство в Азербайджане (XIX – начало XX века) / Ш. Рахманзаде. – Баку: Отдел «Научной информации и издательское дела», – 2023, – 250 с.

[41] İsmayılov, K. Azərbaycan Xalq Cümhuriyyəti və azərbaycançılıq məfkurəsi // – Bakı: Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, – 2018. № 2. – s.213-234.

[42] Süleymanov, M. Gülüstan müqaviləsi – II hissə / M.Süleymanov. – Bakı: "Elm və təhsil", – 2014. 608 s.; Süleymanov, M. Nuru paşa və silahdaşları / M.Süleymanov. – Bakı: [n.y.], – 2014. – 360 s.

[43] Seyidzadə, D. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar / D.Seyidzadə. – Bakı: Oka ofset, – 2004. – 348 s.

[44] Süleymanova, S. Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu-XX yüzilliyin əvvəlləri) / S.Süleymanova. – Bakı: Az. Dövlət Kitab Palatası, – 1999. – 422 s.

[45] Cavadlı, Q.A. İslam və kütləvi informasiya vasitələri / Q.A.Cavadlı. – Bakı: CBS, – 2009. – 176 s.

işıqlandırılmışdır. Şeyxülislam A.Paşazadənin tədqiqatları[46] Azərbaycanda islam tarixinin öyrənilməsi baxımından qiymətlidir. A.Göyüşovun tədqiqatlarında[47] dövrün panislamist ziyalılarının və islami təmayüllü təşkilatların fəaliyyəti işıqlandırılmışdır. A.Balayevin əsərlərində[48] dövrün Azərbaycan ziyalılarının milli, dini azadlıq mübarizəsi haqqında qiymətli məlumatlar var. Y.Mahmudovun rəhbərliyi[49] və həmmüəllifliyi ilə K.Şükürovun, E.Lətifovanın əsərlərində,[50] İ.Əliyevanın,[51] Ş.Hacıəlinin[52] əsərlərində çar Rusiyasının Azərbaycanda apardığı assimilyasiya və missionerlik siyasəti geniş tədqiq olunmuşdur. M.Süleymanlının araşdırmalarında panislamizm,[53] L.Hacıyevanın yaradıcılığında[54] dövrün bəzi rusdilli

---

[46] Paşazadə, A. Qafqazda islam: tarix və müasirlik / A.Paşazadə. – Bakı: Azərnəşr, – 1991. – 224 s.

[47] Göyüşov, A. Azərbaycanda ittihadçılıq / A.Göyüşov. – Bakı: İrşad mərkəzi, – 1997. – 133 s.

[48] Balayev, A. Rəsulzadə: Əlhəzər, ruhaniləri siyasətə qarışdırmayın // Ədalət. – 2012, 11 yanvar. – s.7; Балаев, А. Азербайджанская нация: основные этапы становления на рубеже XIX-XX вв. / А.Балаев. – Москва: Тип. Тиражи.Ru., – 2012. – 409 с.; Балаев, А. Азербайджанские тюрки. Процессы формирования нации и национальной идентичности на рубеже XIX-XX вв. / А.Балаев. – Баку: Qanun, – 2010. – 328 с.; Балаев, А. Патриарх тюркизма: Ахмед бек Агаоглу: 1869-1939 / А.Балаев. – Баку: Teas Press, – 2018. – 508 с.

[49] Şimal-Qərbi Azərbaycan tarixi / Layihə rəhbəri: Y.M.Mahmudov. – Bakı: "Şərq-Qərb", – 2011. – 424 s.

[50] Mahmudov, Y. Qarabağ: real tarix, faktlar, sənədlər / Y.Mahmudov, K.Şükürov. – Bakı: Təhsil, – 2009. – 144 s.; Mahmudov, Y.M. XIX əsrdə çarizmin Şimal-Qərbi Azərbaycanda pravoslavlaşdırma siyasəti və pravoslav kilsələrin tikilməsi tarixindən. İkinci hissə / Y.M.Mahmudov, E.M.Lətifova, A.Ə.Məmmədova // AMEA Tarix İnstitunun Elmi Əsərləri, – Bakı: – 2007. № 20, – s.3-16.

[51] Əliyeva, İ. İngiloylar: zorakı xristianlaşdırmaya və gürcüləşməyə qarşı mübarizə tarixindən / İ.Əliyeva. – Bakı: [n.y.], – 2019. – 368 s.

[52] Hacıəli, Ş. Şimal-Qərbi Azərbaycan: ingiloylar (ən qədim zamanlardan XIII əsrin ortalarınadək) / Ş.Hacıəli, elmi red. A.N.Mustafayev. – Bakı: Təhsil, – 2007. – 280 s.

[53] Süleymanlı, M. Kulturoloji irsin tədqiqi problemləri (XX əsrin əvvəllərinin mənbələri əsasında) / M.Süleymanlı. – Bakı: Nafta-Press, – 2011. – 208 s.

[54] Hacıyeva, L. Azərbaycanın rusdilli dövri mətbuatının tarixindən (1871-1918) / L.Hacıyeva. – Bakı: Elm və təhsil, – 2017. – 392 s.

mətbu orqanlarının Azərbaycana qarşı qərəzli mövqeyi, missionerlik mövzusu, A.Qasımovanın əsərlərində "İşıq" qəzeti və islami qadın mətbuatı tədqiq edilmişdir.[55] M.Məmmədovun,[56] A.Paşayevin[57] əsərlərində nadan ruhanilər, xalqı istismar edən tüfeylilər ifşa edilir.

A.İsgəndərovla A.Mövlayinin "Şeyxülislamlığın tarixi"[58] əsəri müsəlman dini qurumları haqqında çar Rusiyası və Qacar hökumətlərinin qərarlarını və s. geniş məlumatları ehtiva edir.

F.Cabbarovun tədqiqatlarında[59] erməni-qriqorian kilsəsinin terror siyasəti və Qafqazda oynadığı mənfi rol araşdırılmış, daşnakların müsəlmanları qərəzli olaraq panislamizmdə ittiham etdiklərini ortaya qoymuşdur. E.Qarayevin əsərlərində[60] İrəvanda Eçmiədzin

---

[55] Qasımova, A. Azərbaycanda ilk qadın mətbuatı: "İşıq" qəzeti / A.Qasımova. – Bakı: Adiloğlu, – 2010. – 56 s.; Qasımova, A. XX əsrin əvvəllərində Şimali Azərbaycan mətbuatında qadın problemləri / A.Qasımova. – Bakı: Adiloğlu, – 2010. – 168 s.

[56] Məmmədov, M. C.Məmmədquluzadənin din və mövhumat əleyhinə mübarizəsi / M.Məmmədov. – Bakı: AzSSR EA nəşriyyatı, – 1962. – 72 s.

[57] Paşayev, A. "Molla Nəsrəddin": dostları, düşmənləri / A.Paşayev. – Bakı: Çaşıoğlu, – 2010. – 148 s.

[58] İsgəndərov, A. Şeyxülislamlığın tarixi / A.İsgəndərov, A.Mövlayi. – Bakı: Elm və təhsil, – 2016. – 447 s.

[59] Джаббаров, Ф. Армянский национализм на Кавказе и Российские власти (80-е – средине 90-х годов XIX в.) // – Bakı: AMEA Xəbərləri, İctimai elmlər seriyası, – 2016. №1, – с.60-70; Джаббаров, Ф. Армянский экстремизм на Южном Кавказе: вторая половина XIX-начало XX вв. / Ф.Джаббаров, – Баку: TEAS Press, – 2018. – 768 с.; Джаббаров, Ф. Из истории начального этапа противостояния Российских властей и армяно-григорианской церкви (60-70-е гг. XIX в.) // – Bakı: AMEA Xəbərləri, İctimai elmlər seriyası, – 2017. №2, – с.36-45; Джаббаров, Ф. К событиям армяно-азербайджанского конфликта 1905 г. в Тифлисской губернии // – Тбилиси: Proceedings of İnstitute of Georgian History of İvane Javakhishvili Tbilisi State University, – 2018. № XIII, – с. 352-362; Джаббаров, Ф. Секуляризация имущества и капиталов армяно-григорианской церкви в Российской империи: проекты и реализация // – Bakı: Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, – 2016. № 3 (55), – с.172-184.

[60] Qarayev, E.T. Azərbaycanın İrəvan bölgəsinin tarixindən ( (XVII yüzilliyin sonu–XIX yüzilliyin ortalarında) / E.T.Qarayev. – Bakı: Mütərcim, – 2016. – 544 s.; Qarayev, E. İrəvan quberniyasında dini qurumlar, məscidlər və vəqf mülkiyyəti haqqında // – Bakı: Tarix, insan və cəmiyyət, – 2023. № 2 (39), – s.83-94.

erməni-qriqorian kilsəsi mövzusu, Rusiyanın bu kilsə vasitəsilə Azərbaycana olan təzyiqləri, İrəvanda müsəlman dini qurumları araşdırılıb. S.Rüstəmova-Tohidinin[61] daşnak terrorunda erməni kilsəsinin rolunu göstərməsi baxımından önəmlidir. M.Qasımlının,[62] V.Abışovun,[63] R.Hüseynzadənin,[64] R.Hüseynovun,[65] F.Valehoğlu-nun,[66] H.Verdiyevanın[67] əsərləri XIX-XX əsrin əvvəllərində erməni-qriqorian kilsəsinin və daşnak terrorunun Azərbaycana vurduğu zərərləri, qədim albanların varislərindən olan udinlərin deetnizasi-yasını və assimilyasiyasını araşdırmaq baxımından əhəmiyyətlidir. Ü.Hacıyevanın tədqiqatları[68] udinlərin dini həyatını öyrənmək baxımından əhəmiyyətlidir. H.Verdiyevanın[69] və Q.C.Cavadovun[70]

---

[61] Bakı. Mart 1918-ci il. Azərbaycan qırğınları sənədlərdə / tərt. ed. S.Rüstəmova-Tohidi. – Bakı: [n.y.], – 2013. – 456 s.; Quba. Aprel-May 1918-ci il. Müsəlman qırğınları sənədlərdə / tərt. ed. S.Rüstəmova-Tohidi. – Bakı: [n.y.]. – 2013. – 316 s.

[62] Qasımlı, M. "Erməni məsələsi"ndən "erməni soyqırımı"na: gerçək tarix axtarışında (1724-1920) / M.Qasımlı. – Bakı: Mütərcim, 2014. – 468 s.; Qasımov, M. Kafkaslarda Ermeni sorunu / M.Qasımov. – Ankara: İpek Üniversitesi yayınları, – 2014. – 472 s.

[63] Abışov, V.Ş. Azərbaycanlıların soyqırımı (1917-1918-ci illər) / V.Ş.Abışov. – Bakı: Nurlan, – 2007. – 163 s.

[64] Гусейнзаде, Р.А. Кавказ и армяне / Р.А.Гусейнзаде. – Баку. Печатный дом "Апострофф", – 2014. – 486 с.

[65] Гусейнов, Р. Азербайджан и армянский вопрос на Кавказе / Р. Гусейнов. – Баку: НАНА Институт Правам Человека, – 2015. – 304 с.

[66] Valehoğlu, F. Tiflis quberniyasında azərbaycanlılara qarşı 1905-ci il kütləvi qırğınları / F.Valehoğlu. – Bakı: Turxan NPB, – 2013. – 240 s.

[67] Verdiyeva, H. Azərbaycan multikulturalizmi yeni dövrdə (XIX əsr və XX əsrin əvvəlləri) // Azərbaycan multikulturalizmi: Ali məktəblər üçün dərslik / elmi red. K.Abdulla, E.Nəcəfov. – Bakı: BBMM, – 2017. – 416 s., – s.79-86; Verdiyeva, H. Azərbaycan multikulturalizminin XIX əsrə qədərki tarixi // Azərbaycan multikulturalizmi: Ali məktəblər üçün dərslik / elmi red. K.Abdulla, E.Nəcəfov. – Bakı: BBMM, – 2017. – 416 s., – s.72-79.

[68] Hacıyeva, Ü. Alban aftokefal həvari kilsəsində dini ayinlər, mərasimlər və sitayiş formaları // Qafqaz Albaniyasının etno-mədəni irsi / baş red. R.Mehdiyev. – Bakı: Şərq-Qərb, – 2019. – s.80-90.

[69] Вердиева, Х. Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане (XIX – начале XX вв.) / Х.Ю. Вердиева. – Баку:

əsərlərində çar Rusiyasının Azərbaycandakı köç siyasəti, Azərbaycandakı azsaylı xalqlar, onların ölkədəki dini proseslərə təsiri araşdırılmışdır.

S.Əliyevanın əsərlərində[71] çar Rusiyasının Azərbaycana qarşı müstəmləkəçilik siyasəti, Qafqaz xalqlarının Rusiyaya qarşı mübarizəsində islamın rolu, müridizm, məzhəbçiliyin müsəlman xalqlarının vəhdətinə mane olması və s. məsələlər öz əksini tapmışdır.

XIX – XX əsrin əvvəllərində Azərbaycanda yəhudilər, din və adətləri mövzusunu tədqiq etmək baxımından M.M.Əliyevin,[72] M.Bekkerin[73] əsərləri əhəmiyyətlidir. N.Əhmədli tərəfindən tərtib edilmiş İrəvan, Dərbənd və digər şəhərin kameral təsvirlərini təqdim edən kitablarda Azərbaycan xristianları və yəhudiləri haqqında dəyərli tarixi məlumatlar var.[74]

Azərbaycanın XIX – XX əsrin əvvəllərindəki tarixini öyrənməmiz baxımından iki cildlik "Azərbaycan Xalq Cümhuriyyəti

---

«Ecoprint», – 2016. – 420 с.; Вердиева, Х. Немцы в Северном Азербайджане / Х.Ю. Вердиева. – Баку, «Элм», 2009, – 208 с.

[70] Cavadov, Q.C. Azərbaycanın azsaylı xalqları və milli azlıqları (tarix və müasirlik) / Q.C.Cavadov. – Bakı: Elm, – 2000. – 440 s.

[71] Алиева, С. Азербайджан и народы северного Кавказа (XVIII – начало XXI вв.) / С. Алиева. – Баку: "Şərq-Qərb", – 2010. – 620 с.; Алиева, С. Азербайджанская Республика и государственные образования северного Кавказа в 1918-1920-е годы // – Bakı: AMEA Xəbərləri, İctimai elmlər seriyası, – 2018. № 1, – с.202-220; Алиева, С. Татары в Азербайджане: монография / С.Алиева. Татары в Азербайджане: монография. – Казань: Институт истории им. Ш.Марджани АН РТ, – 2018. – 164 с.

[72] Əliyev, M.M. Azərbaycan tatları / M.M.Əliyev. – Bakı: "MBM" nəşriyyatı, – 2006. – 260 s.

[73] Беккер, М. Межнациональный диалог в контексте политического опыта Азербайджанской Демократической Республики 1918–1920 гг. // – Bakı: Strateji təhlil, – 2015. № 2 (13), -s.195-210; Беккер, М. Евреи Азербайджана: История и современность / М.Беккер. – Баку: Озан, – 2000. – 80 с.

[74] Dərbənd şəhərinin kameral təsviri. 1831-ci il / tərc. və tərt. ed. N.Əhmədli. – Bakı: Elm və təhsil, – 2020. – 328 s.; İrəvan əyalətinin Kameral təsviri. İrəvan şəhərinin Kameral təsviri / tərt. ed. N.Əhmədli. – Bakı: Turxan NPB, – c. 1. – 2018. – 328 s.

Ensiklopediyası", AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun çoxcildli "Azərbaycan tarixi"[75] kitabları çox əhəmiyyətli əsərlərdir.

XVIII əsrin sonu – XIX əsrin ortalarına aid Azərbaycan ruhaniliyi haqqında ilk olaraq R.Hüseynli[76] tərəfindən və XIX – XX əsrin əvvəllərində müsəlman ruhaniliyinin sosial-siyasi və mədəni həyatda rolu mövzusunda V.Quliyeva[77] tərəfindən dissertasiyalar müdafiə edilmişdir. E.M.Paşayevanın dissertasiyasında[78] Azərbaycanın çar Rusiyası tərəfindən işğal edilməsinin Rusiya tarixşünaslığında "*xristianları müsəlman zülmündən xilas etmək*", sovet tarixşünaslığında "*Azərbaycanın Rusiya tərkibinə daxil olması*", İran və Türkiyənin "*zülmündən xilas olunması*" kimi təqdim edilməsi tənqid edilmişdir,[79] H.Ş.Azərin dissertasiyasında[80] farsdilli qaynaqlar əsasında Qacarlar dövrünün tarixi, müsəlman din xadimlərinin bu dövrdəki mövqeyi araşdırılıb. V.C.İsmayılovun dissertasiyasında Britaniya, Rusiya kimi imperialist dövlətlərin o dövrdə Cənubi Azərbaycanda baş vermiş inqilabi hərəkatlara münasibəti və müdaxiləsi araşdırılmışdır.[81] Ə.H.Şəfiyevanın dissertasiyasında[82]

---

75 Azərbaycan tarixi: [7 cilddə] / məsul red. M.İsmayılov. – Bakı: Elm, – 2007. – c.4. – 552 s.; Azərbaycan tarixi: [7 cilddə] / məsul red. M.İsmayılov, N.Maksvell. – Bakı: Elm, – c.5. – 2008. – 736 s.

76 Hüseynli, R. Azərbaycan ruhaniliyi XVIII yüzilin sonu – XIX yüzilin ortalarında: / tarix elmləri namizədi dis. avtoreferatı. / – Bakı, 1996. – 23 s.

77 Кулиева, В.А. Роль и позиция мусульманского духовенства в социально – политической и культурной жизни Северного Азербайджана в XIX – начале XX вв. в ракурсе армяно азербайджанских политических отношений: / Дис. на соискание ученой степени кандидата исторических наук. / – Баку, 2004. – 325 с.

78 Paşayeva, E.M. 1801-1830-cu illərdə Rusiya, Türkiyə və İran münasibətlərində Azərbaycan problemi: / tarix elmləri namizədi dis. avtoreferatı. / – Bakı, 2005. – 27 s.

79 Paşayeva, E.M. 1801-1830-cu illərdə Rusiya, Türkiyə və İran münasibətlərində Azərbaycan problemi: / tarix elmləri namizədi dis. avtoreferatı. / – Bakı, 2005. – 27 s., – s.3.

80 Azər, H.Ş. Qacarlar dövründə Rusiya-İran müharibələri (Farsdilli qaynaqlar əsasında)": / tarix üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı, 2017. – 28 s.

81 İsmayılov, V.C. Cənubi Azərbaycan milli-demokratik hərəkatlarının məğlubiyyətində böyük dövlətlərin rolu (XX əsrin birinci yarısı): / tarix elmləri

xarici missionerlərin Cənubi Azərbaycandakı fəaliyyəti, azərbaycanlı S.H.Tağızadə kimi islahatçı ziyalıların Qacarların modernləşməsində rolu, mürtəce din xadimlərinə qarşı mübarizəsi tədqiq edilmişdir.

İ.Bağırovanın,[83] A.Göyüşovun,[84] X.Məmmədovun[85] dissertasiyalarında Azərbaycanda dövrün panislamizm və islam vəhdəti siyasəti, "Difai" hərəkatı, Q.Cavadlının dissertasiyasında[86] dövrün mətbuat vasitələrində dini dəyərlərə baxış məsələsi tədqiq edilmişdir. A.Qasımovanın dissertasiyası[87] dövrün islam maarifçiliyində Azərbaycan qadınlarının, xüsusən "İşıq" qəzetinin rolunu öyrənmək baxımından çox əhəmiyyətlidir. N.Quliyevanın dissertasiyasında XIX əsrin sonu – XX əsrin əvvəllərində Şimali Azərbaycanda islam təhsili mövzusu geniş işıqlandırılmışdır.[88] Demək olar ki, dövrün din xadimləri, islam maarifçiləri adlarını qeyd etdiyimiz bir çox əsərdə, xüsusilə R.Hüseynlinin, H.Məmmədlinin, H.Orucovun, A.Əhədovun və digərlərinin əsərlərində araşdırılsa da, əsas etibarilə ruhanilərin

---

namizədi dis. / – Bakı, 2006. – 156 s.; İsmayılov, V.C. Cənubi Azərbaycan milli-demokratik hərəkatlarının məğlubiyyətində böyük dövlətlərin rolu (XX əsrin birinci yarısı): / tarix elmləri namizədi dis. avtoreferatı / – Bakı, 2006. – 25 s.

[82] Şəfiyeva, Ə.H. İranın modernləşməsində S.H.Tağızadənin rolu: / tarix üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2013. – 196 s.

[83] Багирова, И.С. Политические партии и организации Азербайджана в начале XX века (1900-1917): Дис. …док. ист. наук. / – Баку, 2000. – 337 с.

[84] Göyüşov, A.R. İttihadi-islam partiyasının yaranması və fəaliyyəti: / tarix elmləri namizədi dis. avtoreferatı / – Bakı, 1993. – 25 s.; Göyüşov, A.R. İttihadi-islam partiyasının yaranması və fəaliyyəti: / tarix elmləri namizədi dis. / – Bakı, 1993. – 190 s.

[85] Məmmədov, X.M. Azərbaycanda maarifçilik və milli hərəkat (XIX yüzilliyin sonları – XX yüzilliyin əvvəlləri): / tarix üzrə elmlər doktoru dis. avtoreferatı / – Bakı, 1998. – 51 s.

[86] Cavadlı, Q.A. İslami dəyərlərin kütləvi informasiya vasitələrində işıqlandırılması: / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı, 2011. – 25 s.

[87] Qasımova, A.N. XX əsrin əvvəllərində Azərbaycan mətbuatında qadın problemləri: / tarix elmləri namizədi dis. avtoreferatı. / – Bakı, 2004. – 27 s.

[88] Гулиева, Н.Я. Исламское образование в Северном Азербайджане в XX веке: / автореф. дис. на соискание ученой степени доктора философии по истории. / – Баку, 2015. – 32 с.

çarizm nümayəndələri ilə münasibətləri tədqiq edilmiş, din xadimlərinin yaradıcılıqları, mövcud problemlərə gətirdikləri islami həll yolları zəif işıqlandırılmışdır.

H.Verdiyevanın dissertasiyasında[89] çar Rusiyasının Azərbaycandakı köç siyasəti və bunun missionerliklə əlaqəsi təhlil edilir. İ.Əliyevanın dissertasiyasında[90] çar Rusiyasının ingiloyların timsalında müsəlmanları assimilyasiya siyasəti, Z.Babayeva[91] və S.İbrahimovun[92] dissertasiyalarında islam məzhəbləri, şiəlik, babilik haqqında məlumat verilmişdir. Lakin S.İbrahimovun babiliyi "*mötədil şiə məzhəbi*"[93] kimi qələmə verməsinə baxmayaraq, babiliyin islamdan çıxmış, islamı son din saymayan bir dini cərəyan olduğu Z.Bünyadov və digər din tədqiqatçıları tərəfindən ortaya qoyulmuşdur.[94]

---

[89] Вердиева, Х. Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане в XIX – начале XX вв. (историко-демографическое исследование): / автореферат дис. на соискание ученой степени доктора исторических наук. / – Баку, 2005. – 47 с.

[90] Əliyeva, İ.H. Çar Rusiyasının Şimal-Qərbi Azərbaycanda dini siyasəti və ingiloylar (XIX əsr): / tarix üzrə fəlsəfə doktoru dis. avtoreferatı / – Bakı, 2014. – 28 s.

[91] Babayeva, Z.A. Əbülqasim Hillinin "Şəraiül-islam fi məsailil-həlal və həram" Cəfəri məzhəbinin əsas qaynaqlarından biri kimi: / ilahiyyat elmləri namizədi dis. avtoreferatı / – Bakı, 1995. – 18 s.; Babayeva, Z.A. Əbülqasim Hillinin "Şəraiül-islam fi məsailil-həlal və həram" Cəfəri məzhəbinin əsas qaynaqlarından biri kimi: / ilahiyyat elmləri namizədi dis. / – Bakı, 1995. – 152 s.

[92] İbrahimov, S.M. İslamda imamilik: / fəlsəfə elmləri namizədi dis. avtoreferatı / – Bakı, 2008. – 21 s.; İbrahimov, S.M. İslamda imamilik: / fəlsəfə elmləri namizədi dis. / – Bakı, 2008. – 137 s.

[93] İbrahimov, S.M. İslamda imamilik: / fəlsəfə elmləri namizədi dis. / – Bakı, 2008. – 137 s., – s.151.

[94] Bünyadov, Z. Dinlər, təriqətlər, məzhəblər / Z.Bünyadov. – Bakı: Şərq-Qərb, – 2007. – 336 s., – s.45; Dini terminlər lüğəti / R.Manafov [və b.]. – Bakı: İpək Yolu nəşriyyatı, – 2010. – 407 s., – s.25; Fığlalı, E.R. Bahailik // TDV İslam Ansiklopedisi: [46 ciltte]. – İstanbul: TDV yay., – 1991. – c.4. – s.464-468.

Tədqiqatda Qacar tarixçisi M.Etimadüssəltənənin “Xeyrati-hesan (“Gözəllər sərvəti”)”,[95] “əl-Məasir vəl-asar” (“Gözəl əsərlər və abidələr”),[96] Qacar şahzadəsi Fərhad Mirzənin “Səfərnamə” əsərindən[97] istifadə edilib. Həmçinin XIX əsr Qacar tarixçisi Ə.Dünbülinin,[98] M.M.Tərbiyətin[99] əsərləri böyük əhəmiyyət daşıyır.

Dövrün dini prosesləri ilə əlaqədar Cənubi Azərbaycandan olan C.Əfqaninin,[100] Z.Marağayinin,[101] M.Ə.Talıbovun,[102] M.Kazım-bəyin,[103] M.F.Axundzadənin əsərlərindən[104] istifadə edilmişdir.

Mövzu ilə əlaqədar Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin,[105] Azərbaycan Respublikası Dövlət Arxivinin,[106] AMEA

---

[95] Marağalı, M.E. Xeyrati-hesan (Gözəllər sərvəti) / M.E.Marağalı, – tərc. ed. T.Həsənzadə. – Bakı: Nurlan, – 2009. – 150 s.

[96] محمد حسن خان اعتمادالسلطنه. المآثر و الآثار. جلد اول. تهران، ۹۱۹۱، ۰۳۴ ص.

[97] Qacar, F.M. Səfərnamə / F.M.Qacar, tərc. ed. T.Həsənzadə. – Bakı: Elm və təhsil, – 2017. – 426 s.

[98] Maftun Dunbuli, A. The Dynasty of the Kajars / A.Maftun Dunbuli, trans. Bridges H.J. – London: – 1833. – 668 p.; Dünbüli, Ə. Məasiri-sultaniyyə (Azərbaycana aid fəsillər) / Ə.Dünbüli, tərc. ed. H.R.Şeyxzamanlı. – Bakı: “Kitab çapı.az”, – 2023. – 310 s.

[99] Tərbiyət, M. Danişməndani-Azərbaycan / M.Tərbiyət. – Bakı: Azərnəşr, – 1967. – 464 s.

[100] Əfqani, C. Renana cavab // Ş.Qurbanov. Cəmaləddin Əfqani və türk dünyası. – Bakı: Azərnəşr, – 1997. – s.207-214.

السيد جمال الدين الأفغاني. الرد على الدهريين. القاهره ، ۹۳۳۴، ۱۴ ص.

[101] Marağayi, Z. İbrahim bəyin səyahətnaməsi // Z.Marağayi. – Bakı: Avrasiya press, – 200. – 456 s.

[102] Talıbov, M.Ə. “Xeyirxahların məsləki” romanından bir parça / Cənubi Azərbaycan ədəbiyyatı antologiyası: [3 clddə] / tərt. ed. M.Mənafi [və b.]. – Bakı: Elm, – c.2. – 1983. – s.287-363.

[103] Казем-Бек, М. Избранные произведения / М.Казем-Бек. – Баку: Элм, – 1985. – 420 с.; Kazım bəy, M. Bab və babilər. Müridizm və Şamil. Uyğurlar / M.Kazım bəy, tərc. ed. İ.Umudlu. – Bakı: Hədəf Nəşrləri, -2018. – 432 s.

[104] Axundov, M.F. Bədii və fəlsəfi əsərləri / M.F.Axundov, tərt. ed. H.Məmmədzadə. – Bakı: Yazıçı, – 1987. – 368 s.

[105] Инструкция Главному Тифлисскому Муджштехиду Шейх Али, разработанная и утвержденная Наместником Кавказским (Тифлис: 1845 г. – 1850 г.) // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 288, siyahı № 1, iş № 112, vərəq – 7; Докладная записка Тифлисского Ахунда Шейх-уль-

ислама Мамед Али Главноуправляюшему гражданской частью на Кавказе с занимаемой просьбой освободить его от занимаемой должности и назначить ему пенсию по старости (Тифлис: 1846 г.) // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 288, siyahı № 1, iş № 130, vərəq – 2; Докладная записка Шейх-уль-ислама Начальнику Главного Управления Наместника Кавказского о возникновении сект мюридизма в Нухинском, Кубинском уездах Бакинской губ. и в Дагестане; о сущности мюридизма и мерах борьбы с ним. От Закавказского Шейх-уль-ислама (Тифлис: декабрь 1863 г.) // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 288, siyahı № 1, iş № 55, vərəq – 12; Дело о насильственном насаждении христианства среди мусульман Закатальского уезда (дело полностью на фарсидском языке, Тифлис: 1863 г.) // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 289, siyahı № 1, iş № 43, vərəq – 40; Формулярный список о службе председателя правления Шейх-уль-ислама Ахунда Ахмеда Гусейн-заде (Тифлис: 28 февраля 1884 г.) // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 290, siyahı № 1, iş № 378, vərəq – 10; Дело о назначении на должность шейх-уль-ислама уездного казия Ахунда Мирза Гасан-бек Мирза Насыр-бек оглы Таирова. Послужной список о службе Закавказского Шейх-уль-ислама Ахунда Мирзы Гасан-бека Мирзы Насыр-бек оглы Таирова (Тифлис: 4 декабря 1893 г.) // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 290, siyahı № 1, iş № 421, vərəq – 24; Уставы Тифлисских мусульманских училищ Алиева и Омарова учений (Санкт-Петербург: 18 апреля 1847 г. – 10 мая 1848 г.) // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 290, siyahı № 2, iş № 3882, vərəq – 26; Дело об увольнении, назначении и применении в личном составе духовенства Бакинского Губернского Шиитского Меджлиса. В Закавказское Шиитское Духовное Правление (Баку: 16 сентября 1904 г.) // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 290, siyahı № 2, iş № 2460, vərəq – 14; Послужной список Закавказского муфтия и штатного смотрителя Тифлисского мусульманского училища Омарова учения С.С.Гусейн Эфендия Гаибова (Тифлис: 28 февраля 1908 г. – 30 апреля 1911 г.) // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 291, siyahı № 2, iş № 3997, vərəq – 19; Переписка с канцелярией главноначальствующего гражданской частью на Кавказе и Тифлисским губернским правлением о распространении мюридизма в Борчалинском уезде, Тифлисской губернии. О мюридизма в Борчалинском уезде (Тифлис: 15 января 1898 г. – 25 февраля 1898 г.) / Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 291, siyahı № 1, iş № 2403, vərəq – 10; О подробном и подытожном списке о приходских муллах в пределах Азербайджана выданные министерству исповедания Машихатом. В канцелярию Министра Внутренних дел Азербайджанской Республики (Баку: 11 октября 1919 г.) // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 515,

A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi Arxivinin,[107] Milli Azərbaycan Tarixi Muzeyinin Arxivinin fond materiallarından[108] istifadə edilmişdir. Çar Rusiyasının anti-islam və missionerlik siyasətini öyrənmək baxımından "Qafqazda pravoslav xristianlığını bərpa cəmiyyəti"nin hesabatları[109] böyük rol oynayır. Həmçinin xristian missioner-şərqşünaslarının – N.İ.İlminskinin,[110] M.Miropiyevin,[111] N.P.Ostroumovun əsərlərindən,[112] İ.N.Berezinin

---

siyahı № 1, iş № 68, vərəq – 62; О преобразовании Закавказских Духовных правлений в правление Машихат. В Совет Министров Азербайджанской Республики (Баку: 30 декабря 1918 г.) // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 515, siyahı № 1, iş № 13, vərəq – 21.

[106] Доклад министра иностранных дел М.Гаджинского правительству (Елизаветполь: 15 июля 1918 г.) // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 1061, siyahı № 1, iş № 95, vərəq – 1.

[107] Мусульманские секты в Закавказском крае ("Кавказ", 1893, № 186, 191, 198, 205) // AMEA Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi Arxivi, Fond № 1, siyahı № 4, Inv. № 4194, – 134 с.

[108] Речь тов. Нариманова на собрании коммунистов и ответ работников-мусульман (Астрахан: 28 декабря 1918 г.) // Milli Azərbaycan Tarixi Muzeyinin Arxivi, İnv. № 849, – с. 1-2.

[109] Отчет Общества восстановления православного христианства на Кавказе за 1906-1907 гг. – Тифлис: Цискари, – 1909. – 337 с.

[110] Ильминский, Н.И. Избраннуя миеста из педагогических сочинений / Н.И.Ильминский. – Казань: Тип. Императорского Университета, – 1892, – 134 с.; Ильминский, Н.И. О применении русского алфавита к инородческим языкам / Н.И.Ильминский. – Москва: YOYO Media, – 2011. – 49 с.; Письма Н.И.Ильминского к обер-прокурору Св. Синода К.П.Победоносцеву. – Казань: Типография Императорского Университета, – 1895 г. – 432 с.

[111] Миропиев, М.А. Религиозное и политическое значение хаджа или священного путешествия мухаммедан в Мекку для совершения религиозного празднества / М.А.Миропиев. – Казань: Типография Императорского Университета, – 1881. – 251 с.; Миропиев, М.А. О положении русских инородцев / М.А.Миропиев. – Санкт-Петербург: Синодальная типография, – 1901. – 515 с.

[112] Остроумов, Н.П. Исламоведение Коран: Религиозно-законодательный кодекс мусульман / Н.П.Остроумов. – Ташкент, – 1912. – 160 с.; Остроумов, Н.П. Мусульманские мактабы и русско-туземные школы в Туркестанском крае // – Санкт-Петербург: Журналъ Министерство Народного Просвещения, – 1906. – ч. 1, – с.113-167.

əsərlərindən[113] və Rusiya Dövlət Dumasının stenoqramlarından[114] istifadə edilmişdir. Azərbaycanda yəhudilik mövzusu baxımından B.Millerin,[115] F.Şapironun[116] (1879-1961) əsərlərindən faydalanılmışdır.

Tədqiqatda əl-Bakuvinin "Kəşfül-həqayiq" təfsirindən, Ə.Ağaoğlunun,[117] Ə.Hüseynzadənin,[118] M.Ə.Rəsulzadənin,[119] N.Nərimanovun[120] əsərlərindən, "Азербайджанская Демократи-

---

[113] Березин, И. Путешествие по Востоку-1: Путешествие по Дагестану и Закавказью / И. Березин. – Казань: В Университетской типографии, – 1849. – 181 с.; Березин, И.Н. Путешествие по Востоку-2: Путешествие по Северной Персии. Казань : Тип. Губ. прав., 1852. – 432 с.; Березин, И. Путешествие по Дагестану и Закавказью / И.Березин. – Казань: В Университетской типографии, – 1850. – 181 с.

[114] Кавказские депутаты в III Государственной Думе. – Баку: «Баку», – 1912. – 238 с.; Кавказский запрос в Государственной Думе: Полныя речи всех ораторов по официальним стенограммам. – Тифлись: Электропечатня Х.Г.Хачатурова, – 1909. – 280 с.

[115] Миллер, Б. Таты, их расселение и говоры (материалы и вопросы) / Б.Миллер. – Баку: Общества Обследования и Изучения Азербайджана, – 1929. – 34 с.

[116] Шапиро, Ф.Л. Статей и сборник материалов. Еврейское Агентство (Сохнут) Иерусалим. – 1983. URL: http://mash.dobrota.biz/39hudoj/29133-1-shapirs-statey-sbornik-materialov-evreyskoe-agentstvo-sohnut-ierusalim-1983-predislo.php

[117] Ağaoğlu, Ə. Seçilmiş əsərləri / Ə.Ağaoğlu, tərt. ed. V.Quliyev, Ə.Mirəhmədov. – Bakı: Şərq-Qərb, – 2007. – 392 s.

[118] Hüseynzadə, Ə. Seçilmiş əsərləri / Ə.Hüseynzadə. – Bakı: Çaşıoğlu, – 2007. – 640 s.; Hüseynzadə, Ə. Seçilmiş əsərləri: [2 cilddə] / Ə.Hüseynzadə, tərt. ed. O.Bayramlı. – Bakı: Çaşıoğlu, – 2008. –c.1. – 580 s.; Hüseynzadə, Ə. Seçilmiş əsərləri: [2 cilddə] / Ə.Hüseynzadə, tərt. ed. O.Bayramlı. – Bakı: Çaşıoğlu, – 2008. –c.2. – 496 s.

[119] Rəsulzadə, M.Ə. İran türkləri / M.Ə.Rəsulzadə, tərt. ed. Y.Türkel. – Bakı: Təknur, – 2013. – 100 s.; Rəsulzadə, M.Ə. Panturanizm. Qafqaz sorunu / M.Ə.Rəsulzadə, tərc. ed. Y.Türkel. – Bakı: Təknur, – 2012. – 68 s.

[120] Nərimanov, N. Seçilmiş əsərləri / N.Nərimanov, tərt. ed. T.Əhmədov. – Bakı: Lider, 2004. – 398 s.; Nərimanov, N. Ucqarlarda inqilabımızın tarixinə dair (İ.V. Stalinə məktub) / N.Nərimanov, tərt. ed. P.Əzizbəyova. – Bakı: Azərnəşr, – 1992. – 80 s.

ческая Республика (1918-1920 гг.). Законодательные акты (Сборник документов)",[121] iki cildlik "Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar)"[122] əsərlərindən istifadə edilmişdir.

Dövrün dini prosesləri ilə əlaqədar din xadimlərinin əsərlərindən, "Əkinçi", "Kaspi", "Həyat", "Füyuzat", "Molla Nəsrəddin" və s. mətbuat orqanlarından istifadə olunmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti xronoloji olaraq XIX əsrin əvvəlindən Azərbaycan Xalq Cümhuriyyətinin və Qacarların süqutuna qədərki zaman dövründə baş vermiş dini proseslərdir. Tədqiqatın predmeti bu dini proseslərdə rol oynamış Rusiyanın və Qacarların din və dövlət xadimlərinin, missionerlərin, ziyalıların bu istiqamətdəki fəaliyyətidir. Tədqiqatda dini proseslər araşdırılarkən ruhanilərin dini həyatda oynadığı rol ilə yanaşı islam dininin hökmləri əsasında ictimai-siyasi məsələlərə baxışı, missionerlərin dini-siyasi fəaliyyəti də nəzərdə tutulmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycanda o dövrkü dini prosesləri, mütərəqqi ruhanilərin ictimai-siyasi həyatdakı rolunu, xurafat və mövhumata, Rusiya işğalına və Qacar mütləqiyyətinə qarşı mübarizəsini və onlara qarşı olan mürtəce ruhanilərin fəaliyyətini kompleks şəkildə araşdırmaqdır. Bu məqsədlə bu vəzifələrin yerinə yetirilməsinə diqqət edilmişdir:

-Azərbaycanda dini prosesləri dövrün mənbələri və tədqiqat əsərləri əsasında tədqiq etmək;

-Azərbaycanda dini proseslərin ideya mənbələrini göstərmək;

-Azərbaycanda dini proseslərin mahiyyətini və xüsusi cəhətlərini təhlil etmək;

---

[121] Азербайджанская Демократическая Республика (1918-1920 гг.). Законодательные акты (Сборник документов). – Баку: Издательство «Азербайджан», – 1998. – 560 с.

[122] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar): [2 cilddə] / tərt.ed. A.Ə.Paşayev. – Bakı: "Azərbaycan" nəşriyyatı, – c.1. – 1998. – 976 s.; Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar): [2 cilddə] / tərt.ed. A.Ə.Paşayev. – Bakı: "Azərbaycan" nəşriyyatı, – c.2. – 1998. – 992 s.

-Dövrün din xadimlərinin və digər ziyalıların mövzuya baxışını ortaya qoymaq və təhlil etmək;

-Çar Rusiyasının azərbaycanlılara yönəltdiyi mənəvi təzyiqlərini, islama və müsəlmanlara olan qərəzli mövqeyini göstərmək;

-Qacarlar dövründə Cənubi Azərbaycanın dini proseslərini təhlil etmək;

-Məşrutə inqilabının təməllərinin atılmasında və inqilabın qələbə çalmasında, Qacarların süqutunda ruhanilərin rolunu göstərmək;

-Şimali və Cənubi Azərbaycanda baş vermiş dini prosesləri, ziyalıların əlaqəsini, dini proseslərə baxışını müqayisəli şəkildə təqdim və şərh etmək.

**Tədqiqat metodları.** Tədqiqatın metodologiyası xronoloji-problem, analiz və sintez metodları, həmçinin müqayisəli metod əsasında qurulub. Bu, mövzunu dini, ictimai-siyasi və s. amillər əsasında kompleks şəkildə tədqiq və təhlil etməyə, ümumiləşdirici nəticələr çıxartmağa, konkret hadisələrin obyektiv qiymətləndirilməsinə imkan verir. Tədqiqatda müəllif tədqiq olunan problemlərlə bağlı XIX – XX əsrin əvvəllərində Azərbaycanda yaşamış din xadimlərinin, digər ziyalıların dini-fəlsəfi düşüncələrindən və onların gəldiyi nəticələrdən faydalanmışdır. Tədqiqatın nəzəri əsaslarını XIX əsr – XX əsrin əvvəllərində Azərbaycanda dini prosesin öyrənilməsi üçün əsas rol oynayan mütəfəkkirlərin cəmiyyət, insan, dil, milli-mənəvi dəyərlər, insan haqları, qadın azadlığı və s. icqtimai-siyasi məsələlərə baxışı təşkil edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqatda əsas müddəalar bunlardır:

-Azərbaycanda islami durum və qeyri-müsəlman dini icmalarının vəziyyəti stabil deyildi, dinlər, məzhəblər və təriqətlərarası mübarizə var idi;

-Rusiya Azərbaycanda müsəlmanları assimilyasiyaya cəhd etmişdir;

-Rusiya müsəlmanlara qarşı qeyri-müsəlman dini icmalardan istifadə etmiş, müsəlmanlara qarşı qırğınların törədilməsinə səbəb olmuşdur;

-Rusiya Şimali Azərbaycanda özünəməxsus islam siyasəti icra etmiş, dini qurumları özünə tabe edib məzhəbçiliyi dəstəkləmişdir;

-Rusiya xristian missionerliyi siyasətini icra etmişdir;

-Şimali Azərbaycanın mütərəqqi ruhanilərinin və digər ziyalıların Rusiyaya qarşı mübarizəsi milli-dini azadlığa gedən yolu açmış və son nəticədə Azərbaycan xalqının azadlığına və demokratik Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasına səbəb olmuşdur;

-Qacarların mürtəce və müstəbid dini siyasəti üsyanlara və dövlətin parçalanmasına, süqutuna səbəb olmuşdur;

-Rusiya, Britaniya kimi imperialist dövlətləri Qacarlara qarşı qeyri-müsəlman dini icmalardan istifadə etmiş, müsəlmanlara qarşı qırğınların baş verməsinə səbəb olmuşdur;

-Mütərəqqi din xadimləri xalqın milli-dini baxımdan maariflənməsində müsbət rol oynamışdır;

-Cənubi Azərbaycanın mütərəqqi din xadimlərinin və digər ziyalılarının Qacarlara qarşı mübarizəsi xalqın milli-dini şüurunun artmasına və gələcəkdəki azadlıq mübarizələrinə səbəb olmuşdur;

-Şimali və Cənubi Azərbaycan ziyalıları dini proseslərdə birlikdə rol oynamış, problemlərə birlikdə öz həll yollarını göstərmişdir.

Tədqiqatda göstərilmişdir ki, mütərəqqi ruhani və digər ziyalıların sayəsində mürtəce ruhanilərə, müstəbid dövlət xadimlərinə, imperialist dövlətlərin işğalçılıq və müsəlmanları assimilyasiya siyasətinə qarşı mübarizə mümkün olmuş, bunun sayəsində Şimali Azərbaycanın müstəqil, dünyəvi, demokratik dövlətçiliyinə gedən yol açılmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi hər şeydən öncə mövzunun seçimindən, problemin qoyuluşundan, işin məqsəd və vəzifələrindən irəli gəlir. Elmi işin yeniliyi aşağıdakı müddəalarda öz əksini tapmışdır:

-XIX-XX əsrin əvvəllərində Şimali və Cənubi Azərbaycanda dini proseslər mövzusu ilk dəfə olaraq sistemli formada tədqiqat obyektinə çevrilmiş və kompleks şəkildə öyrənilmişdir.

-Dövrün dini və ictimai-siyasi proseslərinin təhlili üçün C.Əfqani, M.Xiyabani, Məcdüssəltənə kimi mütəfəkkirlərin fikirlə-

rindən mənbələr əsasında nümunələr verməklə dövrün dini mənzərəsi tədqiq edilmişdir;

-“Əxtər”, “Qanun”, “Həblülmətin”, AXC-nin rəsmi orqanı olan “Azərbaycan” qəzetinin və Azərbaycan Demokrat Firqəsinin Təbrizdə, daha sonra Bakıda nəşr olunmuş “Azərbaycan” qəzetinin orijinalından nümunələr verilməklə dini proseslər təhlil edilmişdir;

-İlk dəfə olaraq Azərbaycan tarixşünaslığında Şimali və Cənubi Azərbaycanda qeyd olunan dövrdə ictimai-siyasi proseslərin inkişafında milli, dini şüurun rolu kompleks şəkildə müəyyənləşdirilmiş və bu prosesdə ruhanilərin və digər ziyalıların mövqeyi ortaya qoyulmuşdur. Onların dövrümüzün tolerantlıq və multikultural görüşləri ilə ahəngdar olan mütərəqqi ideyaları verilmişdir;

-Müqayisəli təhlil nəticəsində dindən həm mürtəce, həm də mütərəqqi məqsədlər üçün istifadə edən ruhanilərin və ictimai-siyasi xadimlərin fikirləri təhlil edilmişdir;

-Mütərəqqi ruhanilərin və digər ziyalıların Azərbaycanın dünyəvi demokratik dövlətçiliyin qurulmasına və inkişafına verdiyi töhfələr göstərilmişdir.

-Tədqiqat işində Şimali Azərbaycan və Cənubi Azərbaycandakı dini proseslər bütöv şəkildə götürülərək tədqiq edilmiş, işğala baxmayaraq ziyalıların qarşılıqlı əlaqəsi müqayisəli şəkildə şərh edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat zamanı əldə edilən elmi nəticələr Azərbaycanın XIX-XX əsrin əvvəlləri dövrünün dini proseslərinin obyektiv olaraq cəmiyyətə çatdırılması baxımından böyük elmi-nəzəri və praktik əhəmiyyət daşıyır. İş dini proseslər və bu prosesdə iştirak etmiş din xadimlərinin cəmiyyət və insan haqqındakı ideyalarının tədqiqinə həsr olunduğundan bu mövzudakı gələcək tədqiqatlar üçün müəyyən rol oynaya bilər. Həmçinin işin əhəmiyyəti dini dünyagörüşünün obyektiv şəkildə geniş ictimaiyyətə çatdırılmasındadır.

Tədqiqatdan ictimai-fikir tariximizi öyrənən, xüsusilə Azərbaycanda dinlər və dini icmaların tarixi mövzusu ilə məşğul olan mütəxəssislər, humanitar sahədə çalışan müəllim və tələbələr faydalana bilərlər. Həmçinin tədqiqatdan metodik dərs vəsaiti kimi

istifadə edilə bilər. Tədqiqatın praktik əhəmiyyəti daha çoxdur. Dissertasiyada XIX-XX əsrin əvvəllərində Azərbaycanda dini proseslərin tədqiqi üçün o dövrdə Rusiya işğalı altında olan Şimali Azərbaycanda və Qacarlar dövrü Cənubi Azərbaycanda dövlət-din münasibətləri, mütərəqqi din xadimlərinin, digər ziyalıların, milli mətbuatın nümunəsində onların dini proseslərdə rolu, yaşadıqları dövrün ictimai-siyasi problemlərinin həll yolu olaraq təqdim etdikləri ideyaları təqdim edilmişdir. Bununla yanaşı mütərəqqi din xadimlərinin və digər ziyalıların islamı təhrif edən zülmkar siyasi xadimlərə və mövhumatçı din xadimlərinə qarşı mübarizəsi, onları mütərəqqi dini dəyərlərə necə dəvət etməsi, qeyri-müsəlmanların ölkədəki dini proseslərdəki rolu təqdim olunmuşdur. Müsəlman ruhaniləri və xarici missionerlər öz dini ideyalarından ictimai-siyasi məsələlərdə istifadə etdiyinə görə dissertasiyada dini proseslər adı altında dinin və din xadimlərinin dini həyatdakı rolu ilə yanaşı ictimai-siyasi məsələlərə baxışı da göstərilmişdir. Bu mövzunun geniş təqdim olunması dövrümüz baxımından da əhəmiyyətlidir və dissertasiyanın aktuallığını artırmışdır. Tədqiqat cəmiyyətdə baş verən dini radikallaşma, xurafat, fərqli islami cərəyanların fəaliyyəti və s. prosesləri izah etmək, dövlət-din münasibətlərini öyrənmək baxımından da faydalıdır. Tədqiqatın materiallarından Azərbaycanın XIX – XX əsrin əvvəlləri dövrü tarixinin araşdırılmasında, dövrün islamçılıq, xristian missionerliyi, babilik və bəhailik, tənbəki üsyanı, məşrutə inqilabı kimi mövzularının tədqiqinə dair elmi-tədqiqat işlərinin yazılmasında, müvafiq kursların tədrisində və s. istifadə oluna bilər. Bu tədqiqat gələcəkdə ayrı-ayrı din xadimlərinin və digər ziyalıların mövzu ilə əlaqəli çalışmalarının dərindən tədqiqi üçün də bir başlanğıc ola bilər və tövsiyə edilir.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqatın əsas müddəaları Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi dövri elmi nəşrlərdə çap olunmuş məqalələrdə öz əksini tapmışdır. Müəllifin 17 elmi məqaləsi ölkə daxilində elmi jurnallarda, 4 elmi məqaləsi Rusiya və Qazaxıstanın beynəlxalq elmi jurnallarında, həmçinin Türkiyədə və Azərbaycanda 7 beynəlxalq konfrans materialı çap olunub.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Milli Azərbaycan Tarixi Muzeyinin "Azərbaycan tarixinin elmi tədqiqi və təqdimi" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələri daxil olmaqla ümumi həcmi.** Tədqiqat – giriş, 4 fəsil, 14 paraqraf, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın ümumi həcmi – 513.941 işarə (ədəbiyyat siyahısı istisna olunmaqla), giriş – 47.252, I fəsil – 132.614, II fəsil – 146.038, III fəsil – 93.200, IV fəsil – 75.710, nəticə – 19.127 işarədən ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

"**Giriş**" hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, tədqiqatın məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti, tədqiqatın aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, tədqiqatın quruluşu və həcmi göstərilmişdir.

Dissertasiyanın **"XIX əsrin I yarısında Azərbaycanda dini vəziyyət"** adlanan I fəsli dörd paraqrafdan ibarətdir. Fəslin "**İşğal ərəfəsində dini məsələlər**" adlanan birinci paraqrafında göstərilmişdir ki, qeyd olunan dövrdə Azərbaycan bir çox xanlıqlara bölünmüş olub əsasən dini qanunlarla idarə olunurdu. Şimali Azərbaycanda şiəlik və sünnilik, Cənubi Azərbaycanda isə şiəlik rəsmi məzhəb idi.

Feodal dağınıqlığı, vahid dövlətdə birləşə bilməmək və Rusiyanın Şimali Azərbaycana müdaxiləsi nəticəsində hərbi-siyasi, həm də dini sahədə Azərbaycan xalqına böyük zərbələr dəymişdir. Azərbaycan uğrunda Rusiya - Qacar münaqişələrində dindən də siyasi təzyiq vasitəsi kimi istifadə edilmiş, müsəlmanlar arasındakı ixtilaflar işğala qarşı mübarizədə mənfi nəticələrə səbəb olmuşdur.

Həmçinin göstərilmişdir ki, Qacar hakimiyyəti Cənubi Qafqaz müsəlmanlarından və ruhanilərdən Rusiya işğalına qarşı, Rusiya isə

xristianlıq amilindən müsəlmanlara qarşı istifadə etmişdir.[123] Şimali Azərbaycanı özünə tabe etmək istəyən Ağa Məhəmməd xanın Şuşada öldürülməsi ilə Qacar dövləti zəiflədi və bu proses Rusiyanın Cənubi Qafqazı tam işğal etməsinə yol açdı.

**“Rusiyanın Şimali Azərbaycanda dini siyasəti və işğala qarşı mübarizədə müsəlman faktoru”** adlanan ikinci paraqrafda göstərilmişdir ki, XIX əsrin əvvəllərində Şimali Azərbaycan Rusiyanın işğalına məruz qalmışdır. Azərbaycan xalqına böyük zərbə vurulmuş və tarixi torpaqlarımız iki hissəyə parçalnmışdır. Lakin azərbaycanlılara olan təzyiqlər təkcə milli istiqlalın itirilməsiylə məhdudlaşmadı. Müsəlman əhalinin öz dinindən, milli kimliyindən uzaqlaşması üçün mütərəqqi ruhanilərə, ziyalılara təzyiqlər edildi, Rusiyanın assimilyasiya siyasətinə qarşı mübarizə başladı. Çar hökuməti ruhanilər arasında ziddiyyət yaradır, mənfəətpərəst din xadimlərindən məharətlə istifadə edir, din xadimlərini özünə tabe etməyə çalışırdı.

Bu paraqrafda müsəlmanların dini baxımdan maariflənməsində mütərəqqi din xadimlərinin əhəmiyyətli rol oynadığı göstərilmişdir. Rusiya işğalına qarşı mübarizə aparan İ.Şirvani, Seyid Nigari kimi sufilərin, ruhanilərin olmasına baxmayaraq, onların sayca azlığı və Rusiya hakimiyyətinin apardığı siyasət müsəlmanların dini baxımdan maariflənməsinə mane olmuş, Azərbaycan xalqı bu dövrdə siyasi əsarətlə yanaşı mənəvi əsarətə məruz qalmışdır. Məzhəb ziddiyyətləri azərbaycanlıların Rusiyaya qarşı birgə mübarizəsinə zərər vermişdir.

1823-cü ildə rəsmi olaraq Cənubi Qafqazda şeyxülislam vəzifəsi yaradıldı. Bu vəzifəyə Tiflis axundu Məhəmmədəli Hüseynzadə təyin edildi.[124] Hökumət bu qərarla Şimali Azərbaycanın

---

[123] Fərhadov, Ə. XIX əsrin əvvəllərində Rusiya – Qacar münasibətlərində din faktoru (Azərbaycan nümunəsində) // – Bakı: “Milli Azərbaycan Tarixi Muzeyi-2020”, – 2020, – s.80.

[124] Yunusov, A. Azərbaycanda islam / A.Yunusov. – Bakı: Zaman, – 2004. – 364 s., – s.86; Orucov, H. Azərbaycanda din: ən qədim dövrdən bu günədək / H.Orucov. – Bakı: “İdrak İB”, – 2012. – 388 s., – s.143; Məmmədli, H. Qafqazda islam və şeyxülislamlar / H.Məmmədli. – Bakı: MBM, – 2005. – 179 s., – s.22.

din xadimlərini İran və Türkiyə təsirindən ayırmaq istəyirdi. Çar hökuməti əslən Cənubi Azərbaycandan olan ruhani Ağa Mir Fəttah Təbatəbaini, daha sonra isə Ağa Şeyx Əlini Cənubi Qafqazın şiə müsəlmanlarının rəsmi müctəhidi kimi qəbul etməklə ruhanilər arasında ziddiyyət yaradır, Təbatəbai kimi mənfəətpərəst din xadimlərindən məharətlə istifadə edir, şeyxülislam və müftiləri, digər din xadimlərini özünə tabe etməyə çalışırdı. Hökumətin 1847-1848-ci illərdə verdiyi qərarlarla Tiflisdə "Əli və Ömər təlimləri üzrə müsəlman məktəbləri" yaradıldı. Burada məqsəd hökumətə sadiq din xadimləri yetişdirməklə bərabər müsəlmanlar arasındakı məzhəb ziddiyyətini daha da artırmaq idi.

Dövrün şeyxülislam M.Hüseynzadə kimi mütərəqqi ruhaniləri Rusiya işğalına baxmayaraq dini proseslərdə bacardıqları qədər uğurlu fəaliyyət göstərmiş, əsərləri ilə, fəaliyyətləri ilə xalqın dini baxımdan maariflənməsində, məzhəb ixtilaflarının qarşısının alınmasında, missionerliyə qarşı mübarizədə əhəmiyyətli rol oynamışdılar. Hökumət Şeyx Şamilə və muridizm hərəkatına qalib gəlmək üçün şeyxülislam M.Hüseynzadə kimi nüfuzlu müsəlman ruhanilərindən istifadə etmək istəyirdi.[125] Lakin şeyxülislam M.Hüseynzadə onun bu təklifinə soyuq yanaşmışdı.

Mütərəqqi sufi və ruhanilərin, dini adət-ənənələrə, şəriətə hörmətlə yanaşan və təbliğ edən digər ziyalıların olmasına baxmayaraq, onların sayca azlığı və Rusiya hakimiyyətinin apardığı işğalçılıq, assimilyasiya və istismar siyasəti onların öz haqq səslərini lazımınca eşitdirmələrinə, xalqı dini baxımdan maarifləndirmələrinə mane olmuş, Azərbaycan xalqı bu dövrdə siyasi əsarətlə yanaşı mənəvi əsarətə də məruz qalmışdır.

1837-ci ildə rus müstəmləkəçiliyinə qarşı Quba üsyanı baş vermişdi. Şeyx Şamilin çağırışı ilə Qubada on iki min insan silaha sarılmış, lakin çar hökuməti sünni və şiələr arasındakı ziddiyyətdən istifadə etmiş, şiələrdən təşkil olunmuş silahlı birliklərin vasitəsilə

[125] Алиева, С. Азербайджан и народы северного Кавказа (XVIII – начало XXI вв.) / С. Алиева. – Баку: "Şərq-Qərb", – 2010. – 620 с., – с.217.

üsyanı məğlub etmişdi.[126] 1844-cü ildə Şuşada üsyan başladı, lakin yerli şiə ruhanilərinin bir hissəsi Rusiyaya qarşı çıxış etməkdən imtina etdiyi üçün üsyan məğlub edildi.[127] Əksər şiələrin üsyana qatılmamasının səbəbi sünnilərlə aralarında olan məzhəb ziddiyyəti idi.[128]

Bu dövrdə Şimali Azərbaycan ruhanilərinin Rusiya işğalına qarşı vahid mövqedən çıxış edə bilməməsi azərbaycanlıların birgə mübarizəsinə və qalib gəlmələrinə mane oldu. Nəticədə onların bir hissəsi, o cümlədən sufi şeyxi İ.Şirvani, onun müridi şair Seyid Nigari və tərəfdarları həbs olunmamaq üçün Türkiyəyə köçməyə məcbur qaldılar.[129]

**"Cənubi Azərbaycanın ictimai-siyasi, dini həyatında müsəlman ruhanilərinin rolu"** adlanan üçüncü paraqrafda Qacar dövründə müsəlman ruhanilərinin ictimai-siyasi həyatda rolu, Rusiya işğalına münasibətləri, məzhəb, təriqət ziddiyyətlərinin islamın vəhdətini pozduğu göstərilmiş, dövrün sufiləri və müsəlman filosofları haqqında məlumat verilmişdir. Qacarlar türk sülaləsi olmasına baxmayaraq, türk mədəniyyətinin inkişafına diqqət göstərməmiş, İranla birlikdə Cənubi Azərbaycan əhalisini də ağır zülmlərə düçar etmişdi.

Qacar hakimiyyəti həm də dindən, məzhəb və təriqətlərdən öz siyasi mənafeləri üçün istifadə ediridi. Rusiya işğalına qarşı

---

[126] Swietochowski, T. Russian Azerbaijan (1905-1920): the shaping of a national identity in a Muslim community / T. Swietochowski. – Boston: Cambridge University Press, – 1985. – 272 p., – p.8-9.

[127] Yunusov, A. Azərbaycanda islam / A.Yunusov. – Bakı: Zaman, – 2004. – 364 s., – s.95.

[128] Əl-Bakuvi, M. Kəşfül-həqayiq an-Nukətil-Ayati vəd-Dəqaiq: [3 cilddə] / M.K. əl-Bakuvi. – Tiflis: Kaspi qəzetinin Buxariyyə mətbəəsi, – 1904, – c.1. – 745 s., – s.110; Сборник материалов для описания местностей и племен Кавказа. – Тифлис: Издание Управления Кавказского Учебного Округа, – вып. 27, – 1900. – 699 с., – с.198.

[129] Fərhadov, Ə. Azərbaycanda nəqşibəndilik: X. əl-Bağdadi və İ.S.Şirvani nümunəsi // "Azərbaycan əlyazmaları dünya kitabxanalarında" mövzusunda V Beynəlxalq elmi-nəzəri konfrans, – Bakı-Naxçıvan: – 30 noyabr, – 2020, – s.67-69; XIX əsr Azərbaycanda nəqşibəndiliyin tarixindən // – Bakı: AMEA Sosial elmlər" jurnalı, – 2020. № 2, – s.12-17.

mübarizədə Qacar sarayına yaxın müctəhidlər öz fətvaları ilə cihadı, müharibəni dəstəklədilər. Lakin Rusiyanın Cənubi Azərbaycanı işğalında Təbrizin ruhani rəhbərlərindən olan müctəhid Ağa Mir Fəttah Təbatəbai kimi mürtəce ruhanilər xüsusi rol oynadı. Qacarların hərbi zəifliyi ilə yanaşı mürtəce ruhanilər də xalqın Rusiyaya qarşı mübarizə əzmini azaltdı.[130]

Qacar dövlətinin modernləşməməsinin bir səbəbi də xurafatçı, mövhumatçı, mürtəce ruhanilərin yeni dünyəvi islahatlara qarşı mübarizəsi olmuşdur. Abbas Mirzənin Azərbaycanda və İranda apardığı dünyəvi islahatlara qarşı mücadilə edən xurafatçı ruhanilər ölkədə yeniliklərə qarşı çıxırdılar.

**“Azərbaycanda xristian missionerliyi və qeyri-müsəlman dini icmaları”** adlanan dördüncü paraqrafda çarizmin Azərbaycanda xristianlığı təşviq etməsi, xristian missionerlərinin fəaliyyəti göstərilmiş, müsəlman ruhanilərinin, ziyalıların əsərləri əsasında onlara verilən cavablar təsvir edilmişdir. 1836-cı ildə Alban kilsəsinin tam ləğv edilməsi, alban arxivlərinin məhv edilməsi ilə bütöv bir mədəniyyət yox edilməyə məruz qaldı. Udinlərin timsalında yerli xristianlar Rusiya işğalı nəticəsində assimilyasiyaya, erməniləşməyə, gürcüləşməyə məruz qalmışdır. Burada məqsəd Azərbaycanın xristianlıq keçmişini məhv edib yerli xristianları assimilyasiya etmək idi.[131]

Azərbaycanda yəhudilərə qarşı tarixən tolerant münasibət olmuşdur. Xəzərlər dövründə yəhudilik dövlət dininə çevrilmişdir. Qubada dağ yəhudilərinin yaşadığı Kulqat qəsəbəsi (1926-cı ildən – Qırmızı qəsəbə) XVIII əsrdə Quba xanlığı dövründə salınmışdır. Əvvəllər “Yəhudi qəsəbəsi” adlanan sözügedən yaşayış məntəqəsi

---

[130] Fərhadov, Ə. XIX əsrin əvvəllərində Rusiya – Qacar münasibətlərində din faktoru (Azərbaycan nümunəsində) // – Bakı: “Milli Azərbaycan Tarixi Muzeyi-2020”, – 2020. – s.85.

[131] Fərhadov, Ə. Şimali Azərbaycanda xristian missionerliyi tarixindən: Pavel Florenski nümunəsi // – Bakı: Gənc tədqiqatçı, – 2021. №2, – s.208.

hətta bir vaxtlar "*Qafqazın Yerusəlimi*" kimi də məşhur idi.[132] İranda təzyiqlərdən qaçan yəhudilər köç edib burada yerləşmişdi.[133]

Bu paraqrafda Cənubi Azərbaycanın qeyri-müsəlman dini icmaları və xristian missionerliyi də ətraflı tədqiq edilmişdir. Göstərilmişdir ki, xarici missionerlərin Qacar dövlətindəki fəaliyyətləri azərbaycanlılara böyük zərbə vurmuşdur. Qacarların dini-siyasi proseslərə hakim ola bilməməsi, din və vicdan azadlığını qorumamaları, ictimai-siyasi problemlər, həmçinin babiliyin yaranması, Azərbaycanda yayılması, babi üsyanları və görkəmli babilər, Azərbaycan ziyalılarının babiliyə baxışı, həmçinin əhli-həqq cərəyanı haqqında məlumat verilmişdir.

Qacar dövləti çoxmillətli, çoxdinli və çoxməzhəbli bir ölkə olub, burada şiələrlə yanaşı xeyli sayda sünnilər, zərdüştilər, yəhudilər və müxtəlif xristian məzhəbləri mənsubları da (nəsturi aysorlar, ermənilər və s.) vardı. Xarici missionerlər də qeyri-müsəlmanları dəstəkləyirdilər. Lakin müsəlmanlar tərəfindən onlara mənfi münasibət var idi.[134] Babilərə olan təzyiqlər üsyanlarla nəticələndi. Xurafatçılar sünnilər və şiələr arasında qarşıdurma yaradırdılar.[135]

Dissertasiyanın **"XIX əsrin II yarısında Azərbaycanda dini həyat"** adlanan II fəsli dörd paraqrafdan ibarətdir. Fəslin **"Şimali Azərbaycanın müsəlman ruhaniləri və islam dini qurumları**" adlanan birinci paraqrafında göstərilmişdir ki, Rusiya hakimiyyəti müsəlmanları öz təsirində saxlamaq üçün müctəhid Ağa Şeyx Əli, şeyxülislam Fazil İrəvani, şeyxülislam Əhməd Hüseynzadə Salyani kimi ruhanilərdən istifadə etməyə çalışırdı. Bütün rəsmi din xadimləri imperatora sadiq ruhanilərdən seçilirdi. Hökumət onların

---

[132] Azərbaycanda yəhudilik. – 28 sentyabr, 2019. URL: http://multikulturalizm.gov.az/post/1136/azerbaycanda-yehudilik.html

[133] Fərhadov, Ə. XIX – XX əsrin əvvəlləri İranda yəhudilik // – Bakı: "Gənc tədqiqatçı", – 2021. №1, – s.226.

[134] Fərhadov, Ə. XIX əsrdə Azərbaycanın güneyində xristian missionerliyi tarixindən // – Bakı: "Pedaqoji Universitetin Xəbərləri" (Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası) jurnalı, – 2021. №1, – s.87.

[135] Fərhadov, Ə. Əhməd Kəsrəvinin yaradıcılığında Azərbaycan tarixinə baxış // – Bakı: "Şərq araşdırmaları", – 2021. №3, – s.127.

vasitəsilə müsəlmanları itaətdə saxlamağı qarşısına məqsəd qoymuşdu, məscidlərdə Rusiya imperatoruna və ailəsinə dualar oxumaqla onlara müsəlmanlar tərəfindən hörmət edilməsinə nail olmaq istəyirdilər.

Cənubi Qafqazın şiə müsəlmanlarının ali dini rəhbəri olan müctəhid Ağa Şeyx Əli[136] ilə şeyxülislamlıq arasında ixtilaflar var idi. Çar hökuməti bu ixtilaf sayəsində ruhanilərin güclənməsinə mane olmaq istəyirdi. Lakin şikayətlər nəticəsində hökumət müctəhidlik vəzifəsini ləğv etdi. 1862-ci ildə şeyxülislam Əhməd Hüseynzadə Salyani Cənubi Qafqazın şiə müsəlmanlarının ali dini rəhbəri təyin edildi.

Cənubi Qafqazın şiə və sünni müsəlman Ruhaniləri İdarəsi haqqında "Əsasnamə" Rusiya çarı II Aleksandr tərəfindən 5 aprel 1872-ci ildə təsdiq edildi.[137] Cənubi Qafqazda müftinin başçılığı ilə Sünni Ruhani idarəsi (müftilik) və şeyxülislamın sədrliyi altında Şiə Ruhani İdarəsi (şeyxülislamlıq) yaradıldı. Şeyxülislam Ə.Hüseynzadə Salyani, müfti H.Qayıbov kimi ruhanilər cəmiyyətin islahı və dini proseslərin normallaşması üçün maarifçiliyi, insan haqlarına, xalqlar dostluğu ideyalarına əməl edilməsini, təfriqəçiliyə qarşı mübarizəni irəli sürürdülər. Onlar Rusiya hakimiyyətinə xidmət etsələr də, müsəlman cəmiyyətinin islahı, savadlanması və dini proseslərin normallaşması üçün maarifçiliyi, insan haqlarına, xalqlar dostluğu ideyalarına əməl edilməsini, təfriqəçiliyə qarşı mübarizəni irəli sürürdülər. Həmçinin onlar müridizm kimi Rusiya işğalına qarşı olan dini cərəyanları da Qafqazdan uzaq tutmağa çalışırdılar.

Bu paraqrafda dövrün dini təhsil məsələləri, məscid məktəbləri, mədrəsələr haqqında da məlumat verilmiş, dünyəvi məktəblərdə digər dərslərlə yanaşı şəriət dərsinin keçirildiyi göstərilmişdir.

**"Şimali Azərbaycan ziyalılarının dini-maarifçi görüşləri"** adlanan ikinci paraqrafda M.F.Axundzadənin, M.Kazımbəyin, H.Zərdabinin və s. ziyalıların əsərləri əsasında Azərbaycandakı dini

---

[136] Кавказский календарь на 1851 год. – Тифлис: Типография Канцелярии Наместника Кавказского, – 1850. – 554 с., – с.42.

[137] İsgəndərov, A. Şeyxülislamlığın tarixi / A.İsgəndərov, A.Mövlayi. – Bakı: Elm və təhsil, – 2016. – 447 s., – s.328.

proseslər təhlil edilmişdir. H.Zərdabi, A.A.Bakıxanov, M.F.Axundzadə kimi maarifçi ziyalılar cəmiyyətin islahı və dini proseslərin normallaşması üçün ilk öncə maarifçiliyi, din və vicdan azadlığını, insan haqlarını təbliğ edir, mövhumat və xurafata qarşı mübarizəni irəli sürürdülər. Məsələn, M.Kazımbəy islamı inkar edib xristianlığı qəbul etsə də, babiliyin nümunəsində dində islahatçılıq fikrini müdafiə edir və babiliyin İranda maarifçiliyi artıracağına inanırdı. M.F.Axundzadə isə dinlərə inanmasa da, islamda islahatçılığı təklif edirdi.[138] Rusiyada Qacarlara nisbətən din və vicdan azadlığı olduğu üçün Mirzə Kazımbəy, M.F.Axundzadə kimi mütərəqqi ziyalılar azad fəaliyyət göstərmişdilər.

XIX əsr Azərbaycan mətbuatının inkişafında və islami maarifçiliyin təbliğində H.Zərdabi və "Əkinçi" qəzeti mühüm rol oynamışdır. "Əkinçi"dən sonra H.S.Ünsizadənin "Ziya" (daha sonra "Ziyayi-Qafqaziyyə") qəzetində və C.Ünsizadənin redaktoru olduğu "Kəşkül"də isə din pərdəsi altında aparılan mövhumatçılıq, cəhalət yayan ruhanilər ciddi tənqidə məruz qalır, dini maarifçilik, mədrəsələrin islah edilməsi təbliğ edilirdi.

**"İctimai-siyasi, dini həyatda Cənubi Azərbaycanın müsəlman ruhanilərinin və digər ziyalıların rolu"** adlanan üçüncü paraqrafda Cənubi Azərbaycanın ictimai-siyasi həyatında müsəlman ruhanilərinin, o cümlədən C.Əfqani, M.Y.Təbrizi kimi ziyalıların rolu, onların dini, maarifçi fikirləri, Qacar diktaturasına qarşı demokratik mübarizələri işıqlandırılmışdır. Nəsrəddin şah dövrü və ondan sonrakı dövrdə dövlət-din münasibətləri, Cənubi Azərbaycanda dini vəziyyət, tütün üsyanında və şah rejiminə qarşı mübarizədə C.Əfqaninin, Ə.Səfərovun və digər ziyalıların, mütərəqqi din xadimlərinin rolu, Osmanlı sultanı II Əbdülhəmidin islam vəhdəti siyasətinin Cənubi Azərbaycan ziyalıları tərəfindən dəstəklənməsi kimi məsələlər araşdırılmışdır.

Qacarlar dövründə şiə ruhanilərinin mövqeyi daha da güclənmişdi. Bunun əsas səbəbi Qacar hökmdarlarının dini məsələlərdə

[138] Фархадов, А. Из истории религиозных реформ в исламском мире (конец XIX – начало XX вв.) // – Туркестан: "Iasayı ynıversitetinin habarshysy", – 2021. т.2. №120, – с.24.

özlərini hakim saymayıb, müctəhidləri təqlid etməsi olmuşdu. Axund Fazil Dərbəndi bu dövrdə məşhur olub şah rejimi tərəfindən də hörmət və ehtiram görürdü.

Bu dövrdə M.Y.Təbrizi "Yek kəlmə" ("Bir kəlimə"-Ə.F.) əsərində şah rejiminə qarşı mübarizə aparıb konstitusiya quruluşunu təbliğ etdiyi üçün işgəncələrə məruz qalıb öldürüldü.[139] C.Əfqani mütərəqqi ruhanilərlə birlikdə ingilis imperializminə və Qacar mütləqiyyətinə qarşı mübarizə apardı. XIX əsrin sonunda Qacarlara və ingilis əsarətinə qarşı tənbəki qiyamı baş verdi və nəticədə xalq qalib gəldi.[140] Tənbəki üsyanından məşrutə hərəkatına qədər İrandakı bütün inqilabi hərəkatlarda C.Əfqaninin ideyaları rəhbərlik etmişdi.[141]

**"Azərbaycanda qeyri-müsəlman dini icmaları və xristian missionerliyi"** adlanan dördüncü paraqrafda Rusiyanın assimilyasiya və missionerlik siyasətinin, dini icmalar arasında münaqişə yaratma fəaliyyətinin müsəlmanların haqlı etirazına səbəb olduğu göstərilmişdir. Xristian missionerləri bildirirdilər ki, "*Müsəlmanlara etibar etmək olmaz, rusların dayaqları yalnız xristianlar ola bilər*".[142] Udinlərin, ingiloyların gürcüləşdirilməsi, erməniləşdirilməsi siyasəti, müsəlmanlara edilən təzyiqlər Şimali Azərbaycanda bir sıra üsyanlarla nəticələndi. Xristian missionerləri isə anti-islam fəaliyyətlərini davam etdirirdilər. Bu dövrdə Şimali Azərbaycanda

---

139 Kabiri, S. İran modernleşmesi bağlamında sosyolojinin doğuşu ve kurumlaşması: / doktora tezi. / – İstanbul, 2019. – 307 s., – s.65.

140 Фархадов, А. Обзор религиозной и социально-политической ситуации в Каджарский период (вторая половина XIX в.): на примере Джамаладдина Афгани // – Москва: «Вопросы истории», – 2021. №12 (3), – с.215-220.

141 Ayetullah Murtaza Mutahhari. Son yüzyıldaki islami hareketler. – Ankara: Sahra yay., – 1988. URL:http://www.islamkutuphanesi.com/turkcekitap/online/islami-hareketler-mutahhari/

142 Şimal-Qərbi Azərbaycan tarixi / Layihə rəhbəri: Y.M.Mahmudov. – Bakı: "Şərq-Qərb", – 2011. – 424 s., – s.286.

yəhudi icması fəaliyyət göstərirdi, bunların içində Dərbəndin İshaqi ailəsinin üzvləri xüsusi yer tuturdu.[143]

Bu paraqrafda Rusiyanın və Britaniyanın Cənubi Azərbaycanda xristian icmalarından istifadə edərək missionerlik siyasətindən, babilik və s. dini hərəkatlardan da bəhs olunur. Çar Rusiyası Cənubi Azərbaycanı, Britaniya isə Cənubi İranı öz təsiri altına almağa çalışır, bu məqsədlə xristian icmalarından - ermənilərdən, aysorlardan istifadəyə cəhd göstərirdi. Britaniya və s. Qərb ölkələri öz imperialist maraqları naminə İran xristianlarından Qacar dövlətinə qarşı mübarizədə faydalanmaq istəyirdilər. Bu məqsədlə öz dövlətlərinin maraqlarına xidmət edən xarici missionerlərin Qacar dövlətindəki aktiv fəaliyyətini dəstəkləyirdilər. Həmçinin Azərbaycan xristianlarını müsəlmanlara qarşı təşkilatlandırmaq, məktəblər və mətbuat vasitəsilə onları gücləndirmək, silahlandırmaq, Qacar dövlətini parçalamaq, müsəlmanları assimilyasiyaya cəhd etməyə çalışırdılar.

XIX əsrin II yarısında qanlı mübarizələr baş verdi, babi üsyanları qanla yatırıldı. Bu üsyanlarda azərbaycanlı babilər də xüsusi rol oynadı. Qacar ruhanilərinin fanatikliyi, radikallığı, mövhumatçılığı, Qacar dövlət xadimlərinin din və vicdan, insan haqlarına zidd siyasəti üsyanlara səbəb oldu. Axund Fazil Dərbəndi kimi şiə ruhaniləri bu dövrdə babiliyə qarşı mübarizədə aktiv rol oynadılar. Şairə Tahirə Qürrətüleyn kimi azərbaycanlı babilər şiə ruhanilərinin dəstəklədiyi şah rejimi tərəfindən kafir elan edilib məhv edilirdi.[144] Mirzə Kazımbəy babiliyin İranda maarifçiliyi möhkəmləndirəcəyinə inanır[145] və deyirdi ki, babilik hərəkatı xalqda müstəbid rejimə qarşı mübarizlik ruhunu və dini islahatçılıq ideyalarını gücləndirdi. M.Kazımbəy bu hərəkatda azərbaycanlıların roluna

---

[143] Fərhadov, Ə. XIX – XX əsrin əvvəlləri Şimali Azərbaycanda yəhudiliyin tarixindən // "Ziyalı işığında". Ramazan Qafarlı-70. Beynəlxalq İctimai və Mədəni Elmlər Konfransı, – Bakı: – 15-16 iyul, – 2021, – s.491.

[144] Zerendi Nebil, M. Nebil Tarihi / M.Z.Nebil. – İstanbul: Baha yay., – 2001. – 388 s., – s.380.

[145] Kazım bəy, M. Bab və babilər. Müridizm və Şamil. Uyğurlar, – s.164.

xüsusi əhəmiyyət vermişdi.[146] Tahirə Qürrətüleyn kimi ziyalıların mürtəce ruhanilərin fətvası ilə qətl edilməsini[147] tənqid edən M.F.Axundzadə, Mirzə Kazımbəy, Ə.Ağaoğlu kimi Azərbaycan ziyalıları babilərin şah rejiminə, xurafata və mövhumata qarşı mücadiləsini yüksək qiymətləndirmişdilər.

Dissertasiyanın **"XX əsrin əvvəllərində Şimali Azərbaycanda dini məsələlər"** adlanan III fəsli dörd paraqrafdan ibarətdir. Fəslin **"Milli və dini oyanış"** adlanan birinci paraqrafında göstərilmişdir ki, Yaponiyaya məğlub olmuş və 1905-ci il inqilabı ilə zəifləmiş Rusiyada islahatlar dalğası başladı. Rusiyanın türk-müsəlman bölgələrində milli, dini oyanış güclənməyə başladı.

XIX əsrin sonunda "Əkinçi", "Ziya", "Ziyayi-Qafqaz" və "Kəşkül" ilə başlayan milli mətbuat XX əsrin əvvəlində "Şərqi-Rus", "Həyat", "İşıq", "Füyuzat", "Molla Nəsrəddin" və s. ilə davam etdi. Bu mətbu orqanlarında milli-mənəvi məsələlərə əhəmiyyət verilirdi. Molla Ruhulla, müfti Qayıbov kimi görkəmli ruhanilər mətbu orqanlarında xalqın dini baxımdan maariflənməsinə xidmət edirdilər. Milli məktəblərlə yanaşı milli, dini qurumlar yaradılıb, Rusiya imperializminə qarşı türk-tatar xalqlarının milli, dini mübarizəsi gücləndi.

Bu dövrdə milli ziyalılar içində islamçı "İşıq" qəzetinin redaktoru X.Əlibəyova (1884-1961) xüsusi yer tuturdu. Tədqiqat işində onun, H.Zərdabinin, Ə.Ağaoğlunun s. ziyalıların publisistik fəaliyyətindən bəhs olunur. Bu publisistlərin əksəriyyəti mütərəqqi din xadimləri ilə birlikdə müxtəlif ictimai və xeyriyyə təşkilatlarında birlikdə fəaliyyət göstərmiş, ölkədəki dini vəziyyətin inkişafı yolunda çalışmışlar. Bu dövrdə böyük nüfuza malik olan Ə.Ağaoğlu milli, dini problemlərin səbəbini təqlidçilikdə görür və Quranı zamanın şərtlərinə görə yenidən təfsir etmənin vacibliyini göstərməyə

[146] Рзаев, А. К. Научное наследие М. Казем-бека и современность // Казем-Бек. М. Избранные произведения. – Баку: Элм, – 1985. – 420 с., – с.5-7, 17-19.
[147] Fərhadov, Ə. 19`cu ve 20`ci yüzyılın başlarında Azerbaycan`da dini duruma bakış: Tahire ve Abdülbaha örneği // XV. Uluslararası Türk Kültürü, Sanatı ve Kültürel Mirası Koruma Çevrimiçi Sempozyumu / Sanat Etkinlikleri, – Aydın: – 12-14 Nisan, – 2021, – s. 141-142.

çalışırdı. Ə.Ağaoğlu çarizmin və daşnakların müsəlmanlara olan hücumlarına qarşı 1906-cı ildə "Difai" təşkilatını yaratmışdı.[148] M.Şahtaxtlı və Ə.Ağaoğlu kimi ziyalılar müsəlman xalqlarının sosial-iqtisadi və mədəni geriliyinin səbəblərini islamı onun qaynağından və azad dərk etmək prinsipindən uzaqlaşmaqda görürdülər.[149]

Bu dövrün əsas milli-dini hadisələrindən biri 1904-1906-cı illərdə Quranın ilk dəfə qazı əl-Bakuvi tərəfindən Azərbaycan dilinə tərcümə və təfsirinin nəşr edilməsi idi. O, bu əsəri ilə xalqın Quranı öz dilində anlaya bilməsinin yolunu açdı. Məzhəbçiliyə qarşı mübarizə aparan əl-Bakuvi Ə.Topçubaşov, Ə.Hüseynzadə və Ə.Ağayev ilə birlikdə 1906-cı ildə məzhəblərarası yaxınlaşmanı təmin etmək üçün Bakıda yaradılmış xüsusi komissiyada fəaliyyət göstərmişdi.[150] Əl-Bakuvi, Əbu Turab Axundzadə kimi ruhanilər şəriətçiliyi müdafiə etsələr də, C.Məmmədquluzadə kimi xalqı Qurana zidd olan uydurma hədislərə inanmamağa, təfriqəçiliyə qarşı mübarizəyə, xeyriyyəçiliyə çağırırdılar.[151] Əbu Turab Axundzadə, Axund Y.Z.Talıbzadə kimi ruhanilər rus-tatar məktəblərində şagirdlərə şəriət elmini tədris edir, dini maarifçiliklə məşğul olurdular. H.Z.Tağıyev kimi Azərbaycan xeyriyyəçi-milyonerləri maarifçiliyin artmasına, yoxsul şəxslərin təhsil alaraq milli-dini baxımdan

---

[148] Göyüşov, A. Azərbaycanda ittihadçılıq / A.Göyüşov. – Bakı: İrşad mərkəzi, – 1997. – 133 s., – s.32-33.

[149] Azərbaycan tarixi: [7 clddə] / məsul red. M.İsmayılov. – Bakı: Elm, – 2007. – c.4. – 552 s., – s.32.

[150] Əlimərdan bəy Topçubaşov Azərbaycan mətbuatı səhifələrində. Toplayanı və tərtib edəni: H.Həsənov. Bakı: Elm, 2005, 156 s., – s.138.

[151] Фархадов, А. Из истории религиозных реформ в исламском мире (конец XIX – начало XX вв.) // – Туркестан: "Iasaýı ýnıversıtetiniń habarshysy", – 2021. т.2. №120, – с.24; Farhadov, A. Overview of the religious situation in Azerbaijan in the late 19th and early 20th centuries // International Paris Conference On Social Sciences – IV, – Paris: – April 23-25, – 2020, – p.1-11; Fərhadov, Ə. "Molla Nəsrəddin" jurnalı və Cənubi Azərbaycan tarixi // Pedaqoji Universitetin Xəbərləri" (Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası)" jurnalı, – 2020. №2, – s.82-91.

savadlanmasına, xalqa ləyaqətlə xidmət etmələrinə şərait yaratmağa çalışırdılar.[152]

**"İctimai-siyasi həyatda qeyri-müsəlman icmalarının rolu"** adlanan ikinci paraqrafda erməni, yəhudi və s. dini icmaların fəaliyyətindən bəhs olunur. M.S.Ordubadi yazır ki, erməni keşişləri erməni döyüşçülərini dinc müsəlman əhalisinə qarşı savaşa ruhlandırırdılar.[153] Azərbaycanlılara qarşı qırğınlar törətmək üçün erməni ruhaniləri daşnakları təşviq edir, hətta "Daşnaksutyun"un hərbi rəhbərliyində təmsil olunurdular. Şeyxülislam Ə.Hüseynzadə, müfti H.Qayıbov, qazı əl-Bakuvi kimi müsəlman ruhaniləri, H.Z.Tağıyev, Ə.Ağaoğlu, Ə.Topçubaşov kimi ictimai-siyasi xadimlər isə hər iki xalqı maarifçiliyə, silahı yerə qoymağa, sülhə səsləyirdi.[154] Lakin Rusiya hakim dairələrinə xidmət edən bəzi mətbuat orqanları müsəlmanlara qarşı qərəzli mövqe nümayiş etdirib onları günahkar kimi təqdim edirdi. Məsələn, Sankt-Peterburqda nəşr olunan "Русское слово" qəzetinin 1905-ci il 30 avqust tarixli nömrəsində 1905-ci il Bakı erməni-müsəlman davası haqqında yazırdılar ki, "*Vəhşi müsəlman tatarlar Rusiya hökuməti ilə döyüşür, ermənilər isə rus qoşunlarının tərkibində olub, müsəlmanlarla vuruşurlar*".[155]

XX əsrin əvvəlində Bakıda dağ yəhudiləri üçün iki sinaqoq və yəhudi sefarid (Pireney yarımadası mənşəli-Ə.F.) gimnaziyası

---

[152] Фархадов, А. Из истории религиозных реформ в исламском мире (конец XIX – начало XX вв.) // – Туркестан: "Iasaýı ýnıversıtetiniń habarshysy", – 2021. т.2. №120, – с.19-26; Религиозные реформы в исламском мире в XIX-XX вв. // – Москва: «Вопросы истории», – 2021. №1, – с.218-224.

[153] Ordubadi, M.S. Qanlı illər / M.S.Ordubadi, tərt. ed. Ə.Bağırov. – Bakı, Qafqaz nəşriyyat evi, – 2007. – 184 s., – s.45, 90.

[154] Farhadov, A. Overview of the religious situation in Azerbaijan in the late 19th and early 20th centuries // International Paris Conference On Social Sciences – IV, – Paris: – April 23-25, – 2020, – p.1-11.

[155] Агаев, Ф. Рагим-бек Меликов и армяно-мусульманские столкновения 1905- 1906 гг. в Кавказской прессе // Milli Azərbaycan Tarixi Muzeyi-2005 / elmi red. N.Vəlixanlı. – Bakı: Elm, – 2005. – с.320-325.

açılmışdı.[156] Rusiyada yəhudilərə olan təzyiqlərdən qaçan aşkenazi yəhudiləri Bakıda təşkilatlanmışdı.[157] 1917-ci ildə "Bakı yəhudiləri Milli Şurası" yaradılmışdı. 1915-1916-cı illərdə Bakıda dağ yəhudilərinin "Эхо гор", "Корсох" ("Zəhmətkeş") adında ilk qəzet və jurnalları nəşr edilmişdir.[158] Bütün bu proseslər Şimali Azərbaycanda yəhudilərin ictimai-siyasi, dini həyatda normal iştirakını təmin etdi.[159]

**"Müstəqillik ərəfəsində din faktoru"** adlanan üçüncü paraqrafda göstərilmişdir ki, müstəqillik ərəfəsində Şimali Azərbaycanda ictimai-siyasi həyatda din faktoru və müsəlman ruhaniləri mühüm rol oynadı. Ə.Ağaoğlu, Ə.Hüseynzadə kimi mütəfəkkirlər, şeyxülislam M.Pişnamazzadə, A.Əlizadə kimi ruhanilər əhali arasında həm islamın təbliğində, həm də "Difai" kimi təşkilatlarla birgə çarizmə, daşnak terroruna qarşı mübarizədə böyük xidmətlər gördülər.

Müstəqillik ərəfəsində müsəlmanlara qarşı bolşeviklərin və daşnakların birləşməsi qırğınlara səbəb oldu. M.Ə.Rəsulzadə, M.H.Hacınski və N.Nərimanov bu qırğınların bolşevik liderlərinin iddia etdiyi kimi sinfi mübarizə deyil, milli, dini xarakter aldığını göstərmişdilər.[160]

Azərbaycanda bolşevik və daşnak terroruna məruz qalan müsəlman əhali məhz ziyalıların, mütərəqqi ruhanilərin, xüsusilə

---

[156] Вайнштейн, С., Захарьяев Г. Евреи Азербайджана // İRS Наследие, – 2010. №5 (47), – с. 36-49, – с.39.

[157] Беккер, М. Евреи Азербайджана: История и современность / М.Беккер. – Баку: Озан, – 2000. – 80 с., – с.30.

[158] Горские евреи. История, этнография, культура / сост. и ред. В. Дымшиц. – Москва: ДААТ/Знание, – 1999. – 464 с., – с.387, 434.

[159] Fərhadov, Ə. XIX – XX əsrin əvvəlləri Şimali Azərbaycanda yəhudiliyin tarixindən // "Ziyalı işığında". Ramazan Qafarlı-70. Beynəlxalq İctimai və Mədəni Elmlər Konfransı, – Bakı: – 15-16 iyul, – 2021, – s.491-500.

[160] Azərbaycan qəzeti. 1918-1920 (Seçilmiş nömrələr) / trans. ed. M.Gəncəli, A.Ağaoğlu. – Bakı: Prestige, – 2021. – 108 s., – s.38; Доклад министра иностранных дел М.Гаджинского правительству (Елизаветполь: 15 июля 1918 г.) // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 1061, siyahı № 1, iş № 95, vərəq – 1; Nərimanov, N. Ucqarlarda inqilabımızın tarixinə dair (İ.V. Stalinə məktub) / N.Nərimanov, tərt. ed. P.Əzizbəyova. – Bakı: Azərnəşr, – 1992. – 80 s., – s.25.

Qafqaz Islam Ordusunun yardımı sayəsində yox olmaqdan xilas oldu. M.Ə.Rəsulzadə, Ə.Ağaoğlu, Ə.Hüseynzadə kimi mütəfəkkirlərin, şeyxülislam M.Pişnamazzadə, Ağa Əlizadə kimi mütərəqqi baxışlı din xadimlərinin həmrəyliyi nəticəsində Azərbaycan xalqının milli, dini baxışları mövhumat və xurafatdan elmə doğru inkişaf etdi.[161]

M.Ə.Rəsulzadə və tərəfdarlarının sayəsində Azərbaycan cəmiyyətində islam ümmətçiliyindən türkçülüyə doğru bir yönəlmə oldu. Lakin o, artıq dinçilik şüurundan milli şüura keçdiklərini göstərir, milli dövlətçiliyin ideoloji təməllərini atırdı.

**"Azərbaycan Xalq Cümhuriyyəti dövründə dini-siyasi məsələlər və müsəlman ruhaniləri"** adlanan dördüncü paraqrafda göstərilmişdir ki, AXC-nin qurulması ölkədə milli-dini azadlıqlara imkan yaratdı. Lakin bu azadlıq asan qazanılmadı. Ölkəni Rusiyaya, İrana, Türkiyəyə birləşdirmək istəyən qüvvələr var idi. M.Ə.Rəsulzadə və tərəfdarları isə hər cür ilhaqçılığa qarşı olub, demokratiya, müstəqillik ideyalarını müdafiə edir, "ruhaniləri siyasətə qarışdırmayın" deyirdilər.[162]

AXC hökuməti əsrlərdən bəri davam edən şiə-sünni ixtilafının həllində böyük rol oynadı, sünni və şiə ruhani idarələri vahid dini təşkilatda birləşdirildi.[163] Bu prosesdə AXC rəhbərliyi ilə yanaşı şeyxülislam M.Pişnamazzadə, müfti Mustafa Əfəndi kimi ruhanilər mühüm rol oynadı. Hər iki din xadimi 1918-ci ilin oktyabrında AXC hökumətinə göndərdikləri məktubda dini idarələrin birləşdirilməsini təklif edir, məzhəb ziddiyyətlərinin çarizmin müsəlmanları parçalamaq siyasəti kimi görürdülər. AXC hökuməti "Məşixət" adı altında vahid dini idarə yaradaraq vəhdət siyasətinə xidmət etdi.

---

[161] Fərhadov, Ə. Axund ağa Əlizadə: iki dövrün şeyxülislamı // – Bakı: Bakı Universitetinin Xəbərləri, – 2021. № 1, – s.142-148.

[162] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar): [2 cilddə] / tərt.ed. A.Ə.Paşayev. – Bakı: "Azərbaycan" nəşriyyatı, – c.1. – 1998. – 976 s., – s.533.

[163] İsgəndərov, A. Şeyxülislamlığın tarixi / A.İsgəndərov, A.Mövlayi. – Bakı: Elm və təhsil, – 2016. – 447 s., – s.186.

Şeyxülislam A.Əlizadə cümhuriyyətçiliyin təbliği və daşnak separatçılığına qarşı mübarizə ilə birlikdə mütərəqqi dini fəaliyyəti ilə də xalqı maarifləndirirdi. Mütərəqqi din xadimləri milli ordu quruculuğuna da öz töhfələrini verirdilər.

Xalq Cümhuriyyətinin fəaliyyətində biz dini ideyaların müvəffəqiyyətlə dünyəvi, multikultural ideyalarla sintezini, ölkədə din və vicdan azadlığının, bütün dinlərə hörmət siyasətinin reallaşdırıldığını görürük.

Parlament və hökumətdə qeyri-müsəlman dini icmaların nümayəndələri də təmsil edilir, bu icmaların mətbuat azadlığı, təhsil azadlığı təmin edilir, onlara dövlət qayğısı göstərilirdi. Bu, AXC hakimiyyəti dövründə Azərbaycan multikulturalizminin siyasi təməllərinin atıldığını göstərir.[164]

Dissertasiyanın **"XX əsrin əvvəllərində Cənubi Azərbaycanın ictimai-siyasi həyatında din amili"** adlanan IV fəsli iki paraqrafdan ibarətdir. Fəslin **"Məşrutə hərəkatı dövründə müsəlman ruhanilərinin və digər ziyalıların rolu"** adlanan birinci paraqrafında Qacarlara qarşı məşrutə (konstitusiya) hərəkatı, bu inqilabda S.H.Tağızadə, M.Ə.Rəsulzadə, M.Ə.Talıbov və Z.Marağayi kimi mütəfəkkirlərin, Siqətülislam kimi ruhanilərin fəaliyyət və əsərləri əsasında dövrün dini prosesləri tədqiq edilmişdir.

M.Ə.Talıbov, Z.Marağayi kimi maarifçi ziyalılar cəmiyyətin islahı və ictimai-siyasi, dini problemlərin həlli üçün ilk öncə maariflənməni vacib sayırdılar.[165] Onlar cəmiyyətin aparıcı qüvvələri olan alimlərin və idarəçilərin, sahibkarların dini mənəviyyata və insan haqlarına əsasən islah edilməsini, xarici istilaçılara və təfriqəçiliyə qarşı islam vəhdətini tələb edirdilər.[166] Lakin onlara

---

[164] Fərhadov, Ə. AXC dövründə dövlət-din münasibətləri və multikultural dəyərlər // II Uluslararası 23 Nisan Bilimsel Çalışmalar Kongresi, – Ankara: – 23-25 Nisan, – 2020, – s.185-188; Axund ağa Əlizadə: iki dövrün şeyxülislamı // – Bakı: Bakı Universitetinin Xəbərləri, – 2021. № 1, – s.142-148.

[165] Talıbov, M.Ə. "Xeyirxahların məsləki" romanından bir parça, – s.290-291; Marağayi, Z. İbrahim bəyin səyahətnaməsi, – s.253.

[166] Обзор религиозной, социально-политической ситуации в Гаджарский период конце XIX – начало XX в.: на примере Зейн Ал-Абидина Марагаи // – Москва: «Вопросы истории», – 2022. №1 (2), – с.136-141.

qarşı xurafatçı və mövhumatşı iranlılar tərəfindən böyük təzyiqlər var idi. Z.Marağayinin "İbrahim bəyin səyahətnaməsi" əsəri nadan mollaların fırıldaqçılığını, zalım məmurların xalqa etdiyi zülmü tənqid etdiyi üçün məşrutənin qələbəsinə qədər İranda qadağan edilmişdi.[167] Təbrizdən Qacar parlamentinə deputat seçilən M.Ə.Talıbov da müctəhidləri tənqid etdiyinə görə küfrlə ittiham edildiyi üçün qorxub parlamentə üzvlükdən imtina etmişdi.[168] Ə.Hüseynzadə yazırdı ki, "*Əgər Talıbov kafir isə, demək İranda artıq müsəlman qalmamışdır*".[169] Xalqı maarifləndirməyə çalışan M.Ə.Talıbov öz zəmanəsindən şikayət edir və yazırdı ki, "*Hansı tənbəllik, nadanlıq və xudbinlik bizi Allahın qəzəbinə düçar etmişdir?*". O, özü bu bəlanın səbəbini Qacar sarayının bacarıqsız, küt, cahil, eyş-işrət düşkünü şəxsləri iş başına gətirməsində görmüşdü.[170]

Qacarlar nəinki İranın, heç mənsub olduqları türkdilli mühitin - Cənubi Azərbaycanın da inkişafına xüsusi diqqət ayırmırdılar. M.Ə.Möcüz,[171] Ə.Ağaoğlu[172] Qacarların bu anti-milli siyasətini tənqid etmişdilər. Müzəffərəddin şah 1900-cu ildə Cənubi Azərbaycan məktəblərində türkcənin məcburi tədrisini əmr etsə də,[173] bu dövrdə Qacar hakim dairələrində, hətta S.H.Tağızadə, M.Tərbiyət

---

[167] T əbrizi, Ə.K. İranın məşrutə inqilabının tarixi: [2 cilddə] / Ə.K.Təbrizi, tərc. ed. A.Ə.Haşimi. –Essen: Nima Verlag, – c.1. – 2003. – 528 s., – s.65-67.

[168] Tabriz, A.A. Aydınların, dini liderler ve esnafın İranın yakın dönem toplumsal hareketlerindeki ve devrimlerindeki rollerinin incelenmesi: / doktora tezi. / – Ankara, 2004. – 256 s., – s.67.

[169] Hüseynzadə, Ə. Seçilmiş əsərləri: [2 cilddə] / Ə.Hüseynzadə, tərt. ed. O.Bayramlı. – Bakı: Çaşıoğlu, – c.2. – 2008. – 496 s., – s.292-294.

[170] Babayeva-Vəkilova, N. Cənubi Azərbaycan maarifçiləri / N.Babayeva-Vəkilova. – Bakı: Azərnəşr, – 2009. – 109 s., – s.92.

[171] Möcüz, M.Ə. Əsərləri / M.Ə.Möcüz, tərt. ed. Q.Məmmədli. – Bakı: Yazıçı, – 1982. – 352 s, – s.39.

[172] Ağayev, A. İran'ın Mazi ve Haline Bir Nazar [3] // Sirat-ı Müstakim: [25 cildde] / ed. M.Ertuğrul Düzdağ, – İstanbul: Bağcılar Belediyesi Kültür yay., – c.5. – 2015. – s.9-10.

[173] Musalı, N. Kaçarlar döneminde Türk kimliği ve Türkçenin konumu meseleleri üzerine // – Amasya: Amasya Üniversitesi Sosyal Bilimler Dergisi, – 2018. – c.2, №4, – s.131-171, – s.157.

kimi əksər türk ziyalıları arasında milli şüur formalaşmamışdı.[174] M.H.Rüşdiyyənin Təbrizdə açdığı, özünün "Ana dili", "Vətən dili" dərslikləri ilə təlim keçdiyi müasir tipli məktəbləri molla fətvasıyla dəfələrlə dağıdılıb bağlanmışdı.[175]

Qacar dövründəki ictimai-siyasi problemlər 1905-1911-ci illər məşrutə inqilabına və Müzəffərəddin şah tərəfindən parlamentli monarxiya sisteminin qurulmasına səbəb oldu. Siqətülislam kimi mütərəqqi ruhanilər, S.H.Tağızadə kimi siyasətçilər, Səttarxan başqa olmaqla Təbriz inqilabçıları məşrutə hərəkatında fəal rol oynadılar. Lakin bu inqilab İrana tam azadlıq gətirmədi. Müctəhidlərin qadağası ilə qadınlara və babilərə seçki hüququ verilmədi, onlara parlamentin qapısı açılmadı.[176] Lakin Nəsrəddin şahın qızları Tacüssəltənə və İftixarüssəltənə kimi ziyalılar gizli qadın təşkilatları yaratmış və ruhanilərin etirazına baxmayaraq qadın hüquqlarını müdafiə etmişdilər.[177]

Parlamenti silah gücünə dağıdan Məhəmmədəli şah ölkədən qovulduqdan sonra məşrutə qismən bərpa edildi. C.Məmməd-quluzadənin və M.Ə.Sabirin əsərlərində bu dövrün mürtəce din xadimlərinin fəaliyyəti tənqid edilmişdir.[178] Məşrutənin qələbə çalmasında müctəhid Siqətülislamın və s. mütərəqqi ruhanilərin böyük rolu olmuşdur.[179] Lakin M.Ə.Siqətülislam kimi müstəbid şah hökumətinə və xarici işğala qarşı mübarizə aparan ruhanilər,

---

[174] Nesibli, N. Kuzey ile Güney Azerbaycan sorunları, – s.160.

[175] Həsənzadə, T. XVIII-XIX əsrlərdə İranda yaşamış azərbaycanlı ictimai-siyasi xadimlər: Mehdi Bamdadın "Tarixi-ricali-İran" əsəri əsasında, s.239; Cənubi Azərbaycan tarixinin oçerki (1828-1917): [2 cilddə] / məsul red: S.Bayramzadə. – Bakı: Elm, – c.1. – 2021. – 416 s., – s.287-288.

[176] Afary, J. The place of Shi'i clerics in the first Iranian constitution // Critical Research on Religion, – 2013, № 1 (3), – p.327-346, – p.340.

[177] Kabiri, S. İran modernleşmesi bağlamında sosyolojinin doğuşu ve kurumlaşması / doktora tezi. / – İstanbul, 2019. – 307 s., – s.84.

[178] Fərhadov, Ə. Molla Nəsrəddin" jurnalı və Cənubi Azərbaycan tarixi // – Bakı: Pedaqoji Universitetin Xəbərləri" (Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası)" jurnalı, – 2020. №2, – s.82-91.

[179] Fərhadov, Ə. XX əsrin əvvəllərində din xadimlərinin Qacar İranındakı inqilabi hərəkatda rolu // – Bakı: Milli Azərbaycan Tarixi Muzeyi-2021. – s.83-92.

S.H.Tağızadə kimi demokratik düşüncəli ictimai-siyasi xadimlər təzyiq və təqiblərə məruz qalır, şah hökuməti tərəfindən cəzalandırılırdılar.

**"I Dünya müharibəsi dövründə və Qacarların süqutu ərəfəsində dini-siyasi məsələlər və xristian missionerliyi"** adlanan ikinci paraqrafda xristian missionerlərinin müsəlmanlara qarşı fəaliyyəti, qeyri-müsəlmanlardan Qacarları bölmək, parçalamaq üçün istifadə etdikləri göstərilmişdir.

I Dünya müharibəsində Qacarlar iştirak etməsə də, ölkə Rusiyanın və Britaniyanın işğalına məruz qaldı. İşğalçılar xarici missionerlərdən, ermənilərdən və aysorlardan istifadə edərək Cənubi Azərbaycanda xristian dövləti qurmaq və müsəlmanları məhv etmək istəyirdilər. Cənubi Azərbaycandakı missioner məktəblərində şagirdləri kilsəyə aparıb xristianlıq dini ayinləri üzrə dua oxumağa məcbur edirdilər.[180] "Molla Nəsrəddin" jurnalında[181] və Ə.Hüseynzadənin yaradıcılığında[182] Cənubi Azərbaycanda missionerlərin və onları dəstəkləyən xarici imperialist dövlətlərin səbəb olduğu faciələr geniş əks olunmuşdur.

Cənubi Azərbaycanda baş verən bu faciəvi proseslərin, müsəlmanlara qarşı qırğınların qarşısını urmiyalı general C.Məcdüssəltənə, Y.Z.Talıbzadə kimi ziyalılar xalqın və yardıma gələn Osmanlı Ordusunun köməyi ilə ala bildilər. Dinin dövlətdən ayrı olmasını və türkçülüyü təbliğ edən C.Məcdüssəltənənin tapşırığı ilə müctəhidlər tərəfindən işğalçı Rusiyaya qarşı cihad fətvası verilmiş, fətva kitabça şəklində nəşr edilib yayılmışdı. İşğala qarşı müsəlman ruhaniləri

---

[180] Yigitoğlu, N. "Molla Nəsrəddin" jurnalında erməni – müsəlman münaqişəsi və onun səbəbləri. – 12 may, 2019. URL:https://modern.az/az/news/200512

[181] Məmmədquluzadə, C. Əsərləri: [4 cilddə] / C.Məmmədquluzadə, tərt. ed. İ.Həbibbəyli. – Bakı: Öndər nəşriyyat, – c.3. – 2004. – 480 s, – s.60; Molla Nəsrəddin: satirik jurnal: [10 cilddə] / red. İ.Həbibbəyli, T.Kərimli. – Bakı: Şərq-Qərb, – c.2. – 2017. – 646 s., – s.40.

[182] Hüseynzadə, Ə. Seçilmiş əsərləri: [2 cilddə] / Ə.Hüseynzadə, tərt. ed. O.Bayramlı. – Bakı: Çaşıoğlu, – c.2. – 2008. – 496 s., – s.93-94, 385.

tərəfindən müqəddəs müharibə elan edildi,[183] xalqı səfərbəyliyə çağırdılar.[184]

Bu dövrdə Qərb imperializminə xidmət edən Qacar mütləqiyyətinə qarşı mübarizədə din xadimi və inqilabçı M.Xiyabani böyük rol oynadı. Məşrutə inqilabının iştirakçısı olmuş M.Xiyabani dinin siyasətə müdaxiləsinə qarşı çıxır, demokratik dəyərləri, qadın haqlarını müdafiə edirdi.[185] Onun dini-maarifçi, inqilabi görüşləri, Cənubi Azərbaycandakı inqilabi fəaliyyəti, ingilis imperializminə və Qacar diktaturasına qarşı azadlıq və demokratiya uğrunda mübarizəsi Azərbaycan xalqının gələcək mübarizələri üçün də bir nümunə oldu.[186]

Dissertasiyanın "**Nəticə**" hissəsində tədqiqata yekun vurulmuş və əldə edilmiş mühüm nəticələr qeyd edilmişdir. Müəllif tədqiqatın müasir dövrdəki əhəmiyyətinə və roluna diqqət yetirmişdir. Tədqiqat nəticəsində XIX-XX əsrin əvvəllərində Azərbaycanda dini proseslər, bu proseslərdə rol oynayan ruhanilər, digər ziyalılar, dini icmalar haqqında ətraflı məlumat verilmişdir. Tədqiqat işində göstərilmişdir ki, Azərbaycanda baş verən dini proseslər ictimai-siyasi proseslərlə sıx bağlı idi və bu proseslərin sonunda Azərbaycan xalqı mütərəqqi dini-siyasi ideyalarla yaxından tanış oldu. Azərbaycanın demokratik dəyərlərə, istiqlala, siyasi və mənəvi azadlığına yolu açıldı. Bu prosesdə ziyalılarla yanaşı mütərəqqi din xadimləri də böyük rol oynadı. Deyə bilərik ki, belə ziyalıların, ruhanilərin fəaliyyəti nəticəsində öz tarixi islam mədəniyyətini uğurla inkişaf etdirən, mütərəqqi dünyəvi dəyərlərlə sintez etdirən müasir, demokratik

---

183 Ayaydın, R. Birinci Dünya savaşında Osmanlının İranda cihad-i ekber faaliyetleri / Ş.S.Aydemir. – İstanbul: İstanbul Ünversitesi, – 2016. – 385 s., – s.204.

184 Fərhadov Ə. XX əsrin əvvəlləri Azərbaycanın güneyində xristian missionerliyi tarixindən // – Bakı: "Pedaqoji Universitetin Xəbərləri" (Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası) jurnalı, – 2021. №2, – s.74-76.

185 Tağıyeva, Ş. Güney Azərbaycan / Ş.Tağıyeva, Ə.Rəhimli (Bije), S.Bayramzadə. – Bakı: Orxan, – 2000. – 216 s., – s.196-197.

186 Şeyx Məhəmməd Xiyabani // Azərbaycan. – 1945, 5 noyabr. – s.2; Fərhadov, Ə. Ə.Kəsrəvinin yaradıcılığında Azərbaycan mövzusu // – Bakı: "Sosial elmlər", – 2021. №1, – s.54-55.

Azərbaycan cəmiyyətinin əsasları qoyuldu. Müəllif həmçinin göstərmişdir ki, tədqiqat işindən ayrı-ayrı ruhanilərin və digər ziyalıların dini, ictimai-siyasi həyatdakı rolunu, yaradıcılığını tədqiq etmək baxımından istifadə edilə bilər. Azərbaycanın mütərəqqi din xadimlərinin, sufilərin əsərlərinin öyrənilməsi və təbliğ edilməsi o dövrün dini proseslərini aydınlatdığı kimi, müasir Azərbaycan cəmiyyətinin də maariflənməsi və öz tarixi mirasını, tarixi keçmişini, ictimai-siyasi, dini problemlərinin səbəbini öyrənməsi baxımından əhəmiyyətlidir. Həmçinin bu sayədə xurafat və mövhumata, dini radikalizmə qarşı mübarizə baxımından ən əhəmiyyətli məsələlərindən biridir. Tədqiqatda XIX-XX əsrin əvvəllərində Şimali və Cənubi Azərbaycandakı dini proseslərin bir dissertasiya səviyyəsində vəhdət şəklində təhlil olunması, Şimali və Cənubi Azərbaycan ziyalılarının, o cümlədən din xadimlərinin dini, ictimai-siyasi proseslərdə bir-birləri ilə əlaqəli iştirak etmələrinin təqdim və şərh olunması bütöv Azərbaycanda gedən dini proseslərin kompleks və qarşılıqlı şəkildə araşdırılmasına səbəb olmuşdur. Bu da şimalla cənub arasında tarixi bağların güclənməsi baxımından əhəmiyyətlidir. Dissertasiyada orta və ali məktəblərdə Azərbaycanın din tarixinin, Cənubi Azərbaycan tarixinin, xüsusilə XIX-XX əsrin əvvəlləri dövrünün öyrənilməsinə, Şimali və Cənubi Azərbaycan ziyalılarının qarşılıqlı əlaqələrinin tədqiqinə daha çox yer verilməsi təklif edilmişdir.

**Dissertasiyanın əsas məzmunu öz əksini müəllifin nəşr olunmuş aşağıdakı əsərlərində tapmışdır:**


1. XIX əsrin əvvəllərində Rusiya - Qacar münasibətlərində din faktoru (Azərbaycan nümunəsində) // – Bakı: Milli Azərbaycan Tarixi Muzeyi-2020, – 2020. – s.79-90.
2. XIX əsr Azərbaycanda nəqşibəndiliyin tarixindən // – Bakı: AMEA Sosial elmlər jurnalı, – 2020. № 2, – s.12-17.
3. “Molla Nəsrəddin” jurnalı və Cənubi Azərbaycan tarixi // – Bakı: Pedaqoji Universitetin Xəbərləri (Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası) jurnalı, – 2020. №2, – s.82-91.

4. Bir maarifçinin həyatı: Mirzə Mülküm xan // – Bakı: Turizm və qonaqpərvərlik tədqiqatları, – 2020. № 1, – s.153-160.
5. İranda yəhudilik və Seraya Şapşalın yaradıcılığına baxış (XIX-XX əsrin əvvəlləri) // – Bakı: Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri jurnalı, – 2020. № 57, – s.82-90.
6. Mirzə Mülküm xanın həyat və yaradıcılığına baxış // – Bakı: AMEA Sosial Elmlər jurnalı, – 2020. №1, – s.6-11.
7. Mirzə Mülküm xanın maarifçilik fəaliyyəti // – Bakı: Pedaqoji Universitetin Xəbərləri (Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası) jurnalı, – 2020. № 1, – s.89-96.
8. Axund ağa Əlizadə: iki dövrün şeyxülislamı // – Bakı: Bakı Universitetinin Xəbərləri, – 2021. № 1, – s.142-148.
9. Azərbaycanda nəqşibəndilik: X. əl-Bağdadi və İ.S.Şirvani nümunəsi // "Azərbaycan əlyazmaları dünya kitabxanalarında" mövzusunda V Beynəlxalq elmi-nəzəri konfrans, – Bakı: Elm və Təhsil, – 30 noyabr, – 2020, – s.67-69.
10. Azərbaycan Xalq Cümhuriyyəti (AXC) dövründə dövlət-din münasibətləri və multikultural dəyərlər // II Uluslararası 23 Nisan Bilimsel Çalışmalar Kongresi, – Ankara: IKSAD, – 23 nisan – 25 nisan, – 2020, – s.185-188.
11. Overview of the religious situation in Azerbaijan in the late 19th and early 20th centuries // International Paris Conference On Social Sciences – IV // – Paris: – April 23-25, – 2020, – p.1-11.
12. Ə.Kəsrəvinin yaradıcılığında Azərbaycan mövzusu // – Bakı: AMEA Sosial elmlər, – 2021. №1, – s.50-58.
13. XX əsrin əvvəllərində din xadimlərinin Qacar İranındakı inqilabi hərəkatda rolu // – Bakı: Milli Azərbaycan Tarixi Muzeyi-2021. – s.83-92.
14. XIX əsrdə Azərbaycanın güneyində xristian missionerliyi tarixindən // – Bakı: Pedaqoji Universitetin Xəbərləri (Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası) jurnalı, – 2021. №1, – s.84-92.
15. Qacarlar dövründə din, sufizm və fəlsəfəyə baxış // – Bakı: Turizm və qonaqpərvərlik tədqiqatları, – 2021. №2, – s.45-56.

16. Əhməd Kəsrəvinin yaradıcılığında Azərbaycan tarixinə baxış // – Bakı: Şərq araşdırmaları, – 2021. №3, – s.126-133.
17. XX əsrin əvvəlləri Azərbaycanın güneyində xristian missionerliyi tarixindən // – Bakı: Pedaqoji Universitetin Xəbərləri (Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası) jurnalı, – 2021. №2, – s.70-79.
18. XIX-XX əsrin əvvəlləri İranda yəhudilik // – Bakı: Gənc tədqiqatçı, – 2021. №1, – s.225-232.
19. Qacarlar dövründə sufizm: Zeynalabdin Şirvani nümunəsi // – Bakı: Tarix, insan və cəmiyyət, – 2021. №3, – s.56-64.
20. Şimali Azərbaycanda xristian missionerliyi tarixindən: Pavel Florenski nümunəsi // – Bakı: Gənc tədqiqatçı, – 2021. №2, – s.206-210.
21. XIX əsrin sonu - XX əsrin əvvəlləri Azərbaycanda xristianlığın tarixindən: Pavel Florenski nümunəsi // Karabagh. International Congress Of Modern Studies In Social And Human Science, – Baku: – June 17– 19, – 2021, – s.156-160.
22. XIX-XX əsrin əvvəlləri Şimali Azərbaycanda yəhudiliyin tarixindən // “Ziyalı işığında”. Ramazan Qafarlı-70. Beynəlxalq İctimai və Mədəni Elmlər Konfransı, – Bakı: ISPEC, – 15 iyul – 16 iyul, – 2021, – s.491-500.
23. Qacarlar dövründə fəlsəfəyə baxış // III Beynəlxalq Elm və Təhsildə İnnovativ Texnologiyalar Simpoziumu, – Bakı: IKSAD, – 24 may – 25 may, – 2021, – s.116-126.
24. 19`cu ve 20`ci yüzyılın başlarında Azerbaycan`da dini duruma bakış: Tahire ve Abdülbaha örneği // XV. Uluslararası Türk Kültürü, Sanatı ve Kültürel Mirası Koruma Çevrimiçi Sempozyumu / Sanat Etkinlikleri, – Aydın: – 12 nisan – 14 nisan, – 2021, – s.141-144.
25. Обзор религиозной и социально-политической ситуации в Каджарский период (вторая половина XIX в.): на примере Джамаладдина Афгани // – Москва: Вопросы истории, – 2021. №12 (3), – с.215-220.
26. Из истории религиозных реформ в исламском мире (конец XIX – начало XX вв.) // – Туркестан: Iasayı ynıversitetinin habarshysy, – 2021. т.2. №120, – с.19-26.

27. Религиозные реформы в исламском мире в XIX-XX вв. // – Москва: Вопросы истории, – 2021. №1, – с.218-224.
28. Обзор религиозной, социально-политической ситуации в Гаджарский период конце XIX – начало XX в.: на примере Зейн Ал-Абидина Марагаи // – Москва: Вопросы истории, – 2022. №1 (2), – с.136-141.

Dissertasiyanın müdafiəsi 10 aprel ____________ 2025-ci il tarixində saat 10⁰⁰ ______-da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ-1073, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "10" mart ________ 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 03.03.2025
Kağızın formatı: A5
Həcm: 87875
Tiraj: 100